AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

AYNUR ZAKİR QIZI SABİTOVA

# AMERİKA VƏ AZƏRBAYCAN ƏDƏBİYYATLARINDA ROMANTİZM CƏRƏYANI: TİPOLOGİYASI, TARİXİ

5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)
5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2014

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Nizami Qulu oğlu Cəfərov

Rəsmi opponentlər: filologiya üzrə elmlər doktoru, professor Gülər Həsən qızı Abdullabəyova

filologiya üzrə elmlər doktoru, professor Cəlil Qərib oğlu Nağıyev

filologiya üzrə elmlər doktoru Sara Yusif qızı Osmanlı

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Dünya ədəbiyyatı və Azərbaycan ədəbiyyatı tarixi kafedraları

Müdafiə_28/06__ 2014-cü il saat_______ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____________________________2014-cü ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,
dosent Sevda Davud qızı Vahabova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Konkret ədəbi cərəyanın fərqləndirilməsi əslində müəyyən tipoloji xüsusiyyətləri ilə seçilən ədəbi hadisələrin hansısa əlamətlərinə, təzahür formalarına görə bir-birinə yaxın və başqalarından fərqli məqamlarının müəyyənləşdirilməsidir. Dünya ədəbiyyatının hədsiz rəngarəngliyi, müxtəlif ədəbiyyatlar və ayrı-ayrı yaradıcı şəxslər arasında bariz təzahür edən oxşar və fərqli xüsusiyyətlərin olması tədqiqatçılar qarşısında yaradıcılıq tiplərini müəyyənləşdirmək, milli ədəbiyyatların fərqli xüsusiyyətlərindən, milli üslubundan söhbət açmaq, bütövlükdə dünya ədəbi prosesinin ümumi qanunauyğunluqlarını müəyyənləşdirmək məsələsini qoyur. Oxşar məqamların və milli özəlliklərin müəyyənləşdirilməsi məsələsi isə bilavasitə tipologiya ilə bağlıdır.

Ədəbiyyat sahəsində tipologiyanın aparılması hələ qədim dövrlərdən özünə yer almışdı. Belə ki, hələ antik dövrlərdən başlayaraq bədii ədəbiyyatın spesifik qanunauyğunluqlarının müəyyənləşdirilməsinə, yaradıcılığın məhsulu olan bədii əsərlərin müəyyən xüsusiyyətlərindən çıxış edərək onların "qruplaşdırılmasına" (məsələn, növ və janr problemi) cəhd edilmişdir. XIX əsrdən başlayaraq həmin proses olduqca intensiv getmiş, bir çox ədəbi məktəblər yaranmışdı ki, onlar bir sıra "ortaq xüsusiyyətlərdən" çıxış edərək ədəbiyyatın əsas inkişaf meyllərini müəyyənləşdirməyə cəhd edirdilər.

Romantizm bütövlükdə öz fəlsəfəsi ilə seçilən dünya ədəbi-estetik hadisəsi olduğundan onun haradan və nədən başlanğıc aldığını, hansı inkişaf yolunu keçdikdən sonra nə vaxt tarixin səhnəsindən getdiyini birmənalı söyləmək qeyri-mümkündür. Lakin bununla belə konkret ədəbiyyatlarda onun yaranma və aparıcı mövqedə olma və həmin mövqeni əldən vermə vaxtlarını təxminən göstərmək mümkündür. Bundan başqa, həmin cərəyanın hər bir ədəbiyyatda yaranması və inkişaf yolu fərdi olduğu qədər onun xüsusiyyətləri də bir çox baxımdan özəllikləri ilə fərqlənir ki, bunu da həmin ədəbi hadisəni müxtəlif ədəbiyyatlarda müqayisəli planda nəzərdən keçirmək və onların tipoloji oxşar və fərqli cəhətlərini müəyyənləşdirməklə aşkarlamaq mümkündür.

Romantizmin müxtəlif milli növləri və məktəbləri arasındakı forma və üslubların olduqca böyük rəngarəngliyi, ayrı-ayrı romantiklərin sosial-siyasi baxışları və mövqelərinin bəzən hətta bir-birinə zidd olması bütövlükdə müxtəlif ədəbiyyatlara tam eyni meyarlarla yanaşılması mümkün olan, tipoloji baxımdan qlobal əlamətlərinə görə tam eyniyyət təşkil edən vahid romantizm ədəbi cərəyanından danışmağı çətinləşdirir.

Bütün bu deyilənlər bir ədəbi cərəyan kimi dünya romantizminin tipologiyasının müəyyənləşdirilməsində zaman və məkana görə bir-birindən uzaq Amerika və Azərbaycan ədəbiyyatlarında bu cərəyanın müqayisəli-tipoloji tədqiqinin vacibliyini göstərir. Tədqiqatın aktuallığı da məhz bununla şərtlənir.

*Mövzunun öyrənilməsi.* Həyatı "göstərmək" üsulu, yəni yaradıcılıq tipi kimi, romantizm və realizm məsələsi ədəbiyyatşünaslıq elminin ilk addımlarında diqqət mərkəzində olmuşdur. Bir cərəyan kimi isə romantizm diqqət mərkəzinə XIX əsrdən gəlir. Müxtəlif ədəbiyyatlarda romantizmin bədii təcrübəsi yeni ədəbi cərəyan nümayəndələrinin proqram xarakterli yazıları (manifestləri) ilə müşayiət olunur. Lakin romantizmi bir ədəbi cərəyan kimi öyrənmək, onun özəlliklərini müəyyənləşdirmək, başqa ədəbi cərəyanlardan onu fərqləndirən və konkret milli ədəbiyyat çərçivəsində özünəməxsus xüsusiyyətlərinə baxmayaraq, onu digər ədəbiyyatlardakı oxşar ədəbi hadisələrlə yaxınlaşdıran məqamları aşkarlamaq cəhdləri daha çox XX əsrin ikinci yarısına təsadüf edir. Məhz bu dövrdə sovet ədəbiyyatşünaslığında romantizmin bitkin nəzəriyyəsinin və ümumi tipologiyasının yaradılması məqsədilə diskussiyalar getmiş, bir sıra sanballı tədqiqat əsərləri yaradılmış, nəticədə bu ədəbi cərəyana müəyyən qədər bitkin yanaşma formalaşmışdır və bu da öz əksini əsrin ikinci yarısında yazılmış bir sıra "Ədəbiyyat nəzəriyyəsi" dərsliklərində, monoqrafiyalarda, toplularda tapmışdır.[1]

Romantizmin öyrənilməsinin başqa istiqaməti müxtəlif ədəbiyyatlara dair dərsliklərdə konkret dövrün səciyyələndirilməsi ilə bağlıdır. Hər bir ədəbiyyatda onun özəllikləri olduğundan, dərslik müəllifləri cərəyanın ümumi xüsusiyyətləri ilə yanaşı fərqli xüsusiyyətlərini də göstərməyə cəhd edirlər.

Romantizmin bir ədəbi cərəyan kimi öyrənilməsində vacib istiqaməti konkret yazarların yaradıcılığına müraciət edən tədqiqatçıların əsərləri

---

[1] В.Ванслов. Эстетика романтизма. М.: Искусство, 1966, 397 с.; Проблемы романтизма. М.: Искусство, 1967, 217 с.; Г.Поспелов. Теория литературы. М.: Высшая школа, 1978, 363 с.; Л.Тимофеев. Основы теории литературы. М.: Просвещение, 1971, 464 с.; А.Гаджиев. Романтизм и реализм. Баку: Элм, 1972, 348 с.; Европейский романтизм. М.: Наука, 1973, 506 с.; Р.Юсуфов. Русский романтизм начала ХХ века и национальные культуры. М.: Наука, 1970, 424 с.; Р.Габитова. Философия немецкого романтизма. М.: Наука, 1978, 288 с.; Н.Гуляев. Теория литературы. М.: Высшая школа, 1985, 271 с.; Р.Самарин. Зарубежная литература. М.: Высшая школа, 1987, 368 с. və b.

təşkil edir. Məhz konkret yazarların əsərlərindən son nəticədə milli ədəbiyyat formalaşır və onlar ümumilikdə dünya ədəbiyyatını əmələ gətirir.

Amerika romantizminin öyrənilməsində kifayət qədər təcrübə toplanmışdır.[1] Bunu nəzərə alaraq Amerika romantizminin öyrənilməsində, onun özəlliklərinin müəyyənləşdirilməsində əsasən ayrı-ayrı romantiklərin yaradıcılıqlarına həsr olunmuş tədqiqatlara söykənmək lazım gəlir.[2]

Son illərdə Azərbaycan ədəbiyyatşünaslığında Amerika ədəbiyyatına, o cümlədən romantizminin nümayəndələrinin yaradıcılığına, xüsusən də ABŞ və Azərbaycan romantizminin əlaqələrinin tədqiqinə diqqət artmışdır.[3]

---

[1] М.Анастасьев. Будівничі (американский романтизм) // Вікно в світ, 1999, № 4, с. 33; В.Брукс. Писатель и американская жизнь: в 2-х т. Т. I, М.: Прогресс, 1967; Литературная история Соединенных Штатов Америки, в 3-х т. Т. I, М.: Прогресс, 1977, 601 с.; А.Николюкин. Американский романтизм и современность. М.: Наука, 1968, 412 с.; В.Паррингтон. Основные течения американской мысли, в 3-х т. Т. 2, М.: Изд-во ин. лит-ры, 1962, 591 с.; Р.Орлова. Гарриет Бичер-Стоу. М.: Просвещение, 1971, 127 с.; Проблемы становления американской литературы. М.: Наука, 1981, 384 с.; Романтические традиции американской литературы XIX века и современность. М.: Наука, 1982, 152 с.; Н.Самохвалов. Проблемы американского романтизма // Американская литература. Краснодар: 1972; А.Старцев. От Уитмена до Хемингуэя. М.: Советский писатель, 1972, 374 с.; В.Яценко. Южная школа американского романтизма. Иваново: ИвГУ, 1983, 88 с. və b.

[2] Романтизм в американской литературе. М.: 1972; А.Анастасьев. Эдгар По и его «Песнь о Гайавате» / Henri W. Longfellow. The song of Haiwatna. An epic poem. М.: 1957; В.Захаров. Лирика Эдгара По (по Э.По. Лирика). М.: Худ. лит-ра, 1976, 128 с.; Ю.Ковалев. Эдгар Аллан По. Л.: Худ. лит-ра, 1984, 296 с.; Л.Ронгонен. Генри У. Лонгфелло и его поэма «Песнь о Гайавате». М.: Высшая школа, 1982, 94 с. və b.

[3] T.Əliyeva. Azərbaycan-Amerika ədəbi əlaqələri (F.Kuper Azərbaycan dilində): Fil.fəl.dok. ... dis. Bakı: 1992; Z.Ağayev. Azərbaycan mövzusu və ədəbiyyatı Amerika Birləşmiş Ştatlarında. Bakı: 1995; N.Nuriyeva. T.Drayzer və Azərbaycan: Fil.fəl.dok. ... dis. Bakı: 1997; Z.Ağayev. Harriyet Biçer-Stou – böyük Amerikanı təlatümə salan balaca qadın / A.Sabitova. ABŞ, abolisionist hərəkatı və Harriyet Biçer-Stou. Bakı: 2005; Z.Hüseynova. Amerika romantizmi və Henri Longfello / ADU-nun Elmi xəbərləri, 2003, № 12; Р.Раджабова. Американский романтизм и творчество Уолта Уитмена: Автореф. дис. … канд. филол. наук. Баку, 2005; N.Məsiyeva. Azərbaycan ədəbiyyatı ABŞ ədəbi mühitində: Fil.fəl.dok. ... dis. Bakı: 2010; M.Babayev. Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə: Fil.fəl.dok. ... dis. Bakı: 2011 və b.

Azərbaycan ədəbiyyatşünaslığında romantizmin bir ədəbi cərəyan kimi öyrənilməsi birinci növbədə bu problemlə bağlı ilk monoqrafik tədqiqatın müəllifi akademik Məmməd Cəfərin adı ilə bağlıdır. XX əsrin 70-80-ci illərindən romantiklərin yaradıcılığına diqqət daha da artır. Bu öz əksini bütövlükdə romantizm cərəyanına həsr olunmuş tədqiqat əsərlərinin yaradılmasında, romantiklərimizdən Abbas Səhhət, Abdulla Şaiq, Hüseyn Cavid, Məhəmməd Hadi, Cəfər Cabbarlının yaradıcılıqlarının ən müxtəlif səpkilərdən öyrənilməsində tapmışdır.[1] Bu məsələ XXI əsrin əvvəllərində də tədqiqatçıların diqqət mərkəzindədir.[2]

Amerika ədəbiyyatşünaslığında da romantizm dövrü kifayət qədər geniş öyrənilmişdir.[3]

*Tədqiqatın obyekti* bütövlükdə romantizmin nəzəriyyəsi məsələləri kontekstində Amerika və Azərbaycan ədəbiyyatlarında romantizm cərəyanının təcrübəsidir.

*Tədqiqatın predmeti* – Amerika və Azərbaycan ədəbiyyatlarında romantizm cərəyanının özəllikləri və tipoloji oxşar cəhətləridir.

---

[1] M.Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərb. SSR EA, 1963, 92 s.; Ə.İbadoğlu. Hüseyn Cavidin "İblis" faciəsi. Bakı: Azərnəşr, 1969, 165 s.; Z.Əkbərov. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, 151 s.; M.Əlioğlu. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, 215 s.; V.Osmanlı. Azərbaycan romantikləri. Bakı: Yazıçı, 1985; T.Əfəndiyev. Hüseyn Cavidin ideyalar aləmi. Bakı: Yazıçı, 1985; K.Əliyev. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, Elm, 1993; Ə.İsmayılov. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı: Yazıçı, 1983 və b.

[2] V.Osmanlı. Abdulla Şaiqin romantizmi. Bakı: Azərbaycan Universiteti, 2004, 147 s.; V.Osmanlı. Məhəmməd Hadinin romantizmi. Bakı: Elm, 2006, 202 s.; V.Osmanlı. Azərbaycan romantizmi: 2 cilddə, I c. Bakı: Elm, 2010, 464 s.; K.Əliyev. Cavid möcüzəsi. Bakı: Nurlan, 2002; K.Əliyev. Azərbaycan romantizminin poetikası. Bakı: Elm, 2002; K.Əliyev. Azərbaycan romantizminin nəzəriyyəsi. Bakı: Elm, 2006, 204 s. və b.

[3] Adams R.P. Romanticism and the American Renaissance. American Literature, 23, Jan., 1952, p. 419-432; An Anthology of English and American verse. M.: Progress Publishers, 1972; Berlin I. The Roots of Romanticism. 1999; Blue F.I. The poet and the Reformer: Longfellow, Summer, and the Bonds of Male Friendship, 1837-1874 // Journal of the early Republic 15.2 (Sum. 1995): 273//http://www. Hains Ch. Edgar Allan Poe. His Waiting and Influence. N.-Y.: 1974, p. 273-297; Ringe D.A. James Fenimore Cooper. 1962; Rosen C. And Lerner H. Romanticism and Realism. 1984; Michener R. Henry Wordsworth Longfellow: Librarian of Bondoin College, 1829-35. Library Quarterly 43.3. (Jul. 1973), p. 215-226 və b.

Tədqiqat işində aşağıdakı *fərziyyədən* çıxış edilir. Romantizm ədəbi cərəyanı müəyyən qlobal ictimai-siyasi, tarixi şəraitin təsiri altında (əsasən tarixin dönüş anında, gerçəklikdə gözlənilənlər yerini almadıqda və ideal bədii təxəyyüldə axtarılanda) formalaşır, öz missiyasını yerinə yetirdikdən sonra aparıcı mövqedən gedir. Belə tarixi şərait Qərb ölkələrində XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə, Şərqdə (Azərbaycan, Türkiyə, tatar, özbək, qazax və s. ədəbiyyatlarında) XX əsrin əvvəllərinə təsadüf edir və bu fakt romantizmin yaranmasını konkret ictimai-siyasi situasiya ilə əlaqələndirməyə imkan vermir. Müəyyən qəlibləri, ehkamları qəbul etmədiyindən romantizm həyat hadisələrinin seçimi və bədii ümumiləşdirmə prinsiplərində müəlliflər arasında yaxınlığın, tipoloji oxşarlığın olmasına baxmayaraq, hətta konkret milli ədəbiyyat daxilində rəngarəngliyi ilə fərqlənir. Bununla belə romantizmin müxtəlif milli ədəbiyyatlardakı nümunələri arasında bir sıra oxşar məqamlar müşahidə olunur və həmin məqamlar cərəyanın özünün xüsusiyyətlərindən irəli gəlir və müxtəlif ədəbiyyatlar arasında tipoloji oxşarlıqları müəyyənləşdirməyə imkan verir. Həmin tipoloji oxşarlıqlar bir-birindən həm zaman, həm də məkana görə çox uzaq ölkələrin (Azərbaycan və Amerika) ədəbiyyatlarında da, özü də ən müxtəlif səviyyələrdə müşahidə olunur.

*Tədqiqatın məqsəd və vəzifələri.* Tədqiqat işinin qarşısında duran əsas məqsəd Amerika və Azərbaycan romantizmlərinin müxtəlif səviyyələrdə tipologiyasını aparmaqdır. Bu məqsəddən aşağıdakı vəzifələr irəli gəlir:

- romantizmin ədəbi metod və ədəbi cərəyan kimi xüsusiyyətlərini müəyyənləşdirmək;
- bir ədəbi cərəyan kimi romantizmin tarixi yolunu, tipləri və təzahür formalarını, onun formalaşmasını şərtləndirən tarixi şəraiti nəzərdən keçirmək;
- Amerika romantizminin formalaşdığı tarixi şəraiti və onun keçdiyi inkişaf yolunu səciyyələndirmək;
- Azərbaycan romantizminin yarandığı tarixi şəraiti, həmin şəraitin özəlliklərini və inkişaf yolunu nəzərdən keçirmək;
- Amerika romantizminin özəlliklərini aşkarlamaq və bu xüsusda onun müxtəlif qollarını ayrı-ayrılıqda tədqiqata cəlb etmək;
- Azərbaycan romantizminin milli özəlliklərini aşkarlamaq;
- Amerika və Azərbaycan romantizmləri arasında paralellər apararaq, onların tipoloji oxşar xüsusiyyətlərini müəyyənləşdirmək.

*İşin elmi yeniliyi.* Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Amerika və Azərbaycan ədəbiyyatlarında romantizm ədəbi cərəyanı

müqayisəli-tipoloji planda tədqiqata cəlb olunmuşdur. Hər iki ədəbiyyatda romantizmin yarandığı tarixi şəraitin, keçdiyi fərqli yolların nəzərdən keçirilməsi Amerika və Azərbaycan romantizminin tipologiyasını müəyyənləşdirmək üçün əsas şərt kimi götürülür. Hər iki romantizmin tarixinə dair təklif olunan dövrləşmələr və müəyyən təsnifatlar (Amerika romantizminə dair: Şimalda abolisionist ədəbiyyatı, köləliyi kəşf edən Cənub ədəbiyyatı, Qərb ştatları ədəbiyyatında milli koloritin əksi, vestern janrının yaranması və s.) sözü gedən cərəyanın Amerika və Azərbaycan ədəbiyyatında romantizmin özəlliklərini daha qabarıq şəkildə açıqlamağa imkan verir. Tədqiqat prosesində aşkarlanan milli özəlliklər nəzərə alınmaqla hər iki ədəbiyyatın romantik irsinin müqayisəli təhlili nəticəsində bir sıra tipoloji xüsusiyyətlər müəyyənləşdirilmişdir (romantizmin maarifçiliyin davamı kimi meydana gəlməsi və maarifçilik dəyərlərinin və praktik maarifçiliyin həyata keçirilməsində vasitə kimi çıxış etməsi; klassik ənənəyə münasibətdə: Amerikada milli ədəbiyyatın yaradılması meyli şəklində, Azərbaycan ədəbiyyatında tənqidi realizmlə paralel yaranıb inkişaf etməsi, "qayıdan" romantizm kimi təzahür etməsi, o cümlədən klassik şeir formalarının yeniləşdirilməsi və yeni məzmunun tələblərinə uyğunlaşdırılması, ədəbiyyata yeni mövzular və janrlar gətirilməsi; Amerika romantizminin rasionallığı ilə bağlı yerli koloritin güclü olması, Azərbaycan romantizmində "məkan" anlayışının spesifikası; sosial problematikasına münasibətin ifadə formaları və s.).

Tədqiqat prosesində aparılan müşahidələr və əldə edilən nəticələr dünya romantizminin tipoloji mənzərəsini dolğunlaşdıran material kimi təqdim olunur.

*Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.* Tədqiqatda əldə olunan qənaətlər romantizm nəzəriyyəsinin və bu cərəyanın tarixinin öyrənilməsində müəyyən boşluqları doldurur, müxtəlif ədəbiyyatlarda romantizm cərəyanına aid edilən əsərlərin tipoloji kontekstdə tədqiqində istifadə edilə bilər. Tədqiqatın materialı və nəticələrindən ədəbiyyat nəzəriyyəsi, Amerika ədəbiyyatı və Azərbaycan ədəbiyyatı kursları üzrə dərsliklərin hazırlanmasında istifadə oluna bilər.

*Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:*

1. Yaradıcı tip kimi romantizm realizmlə birgə söz sənəti yaranandan yaranmış və bu və ya digər şəkildə əksər bədii əsərlərdə özünə yer alır. Həyat hadisələrinin seçimi, bədii ümumiləşdirilməsi və inikasında subyektiv başlanğıcın üstünlüyü, obrazların müəllifin iradəsiylə hər hansı keyfiyyətin daşıyıcısına çevrildiyi əsərlərdə romantik təsvir üsulu dominantlıq təşkil edir.

2. Bir ədəbi cərəyan kimi romantizmdə iki aləm - real və xəyali - üzvi vəhdətdə çıxış edir. Romantizm idealın daşıyıcısı olduğundan, onun dinlə əlaqəsi qaçılmazdır və buna romantik əsərlərin əksəriyyətində bu və ya digər dərəcədə təsadüf olunur. Bu baxımdan yanaşdıqda Şərq mistiklərinin poeziyası ilə bir sıra Avropa və xüsusilə də Amerika romantiklərinin, sonuncular arasında isə transendentalistlərin əsərləri arasında tipoloji yaxınlıq müşahidə olunur. Bu yaxınlıq əsərlərin poetik sistemində müxtəlif səviyyələrdə özünü göstərir.

3. Romantizmin bütün milli növlərinin əsasında həyat materialının romantik seçimi və ümumiləşdirmə metodu dursa da, romantizmin hər bir milli "növü" fərqli təkamülü ilə seçilir, qarşısında duran konkret məsələləri həll edir və tədricən ikinci plana çəkilsə də, tarixin səhnəsindən birdəfəlik getmir, realist ədəbiyyatda romantika şəklində təzahür edir.

4. Romantizm bir ədəbi cərəyan kimi tarixin dönüş anında, mövcud tarixi gerçəkliklə bağlı ümidsizlik son həddə çatanda, yəni ideala can atma gerçəklikdən üz döndərməyə vadar edəndə yaranır.

5. Amerika romantizmi müstəqil Amerika Birləşmiş Ştatları dövləti yaranandan sonra bərqərar olmuşdur. Onun formalaşması müstəqil Amerika ədəbiyyatının yaranması ilə üst-üstə düşür. Əslində həmin ədəbiyyatın yaradılması missiyası Amerika romantiklərinin öhdəsinə düşmüşdür. Yeni dövlətin cəmiyyət həyatında sürətlə baş verən inkişaf meylləri, müstəqilliyin ilk illərində doğmuş ruh yüksəkliyi, sonra ölkənin inkişaf yolundakı iki bir-birinə zidd meyllər, bölgələrin bu məsələyə kəskin fərqli münasibəti, gözlənilən nəticələrin (hər iki tərəfin mövqeyindən) əldə olunmaması və bundan doğan narazılıq və romantizmə xas ideal axtarışları Amerika romantizminin özünəməxsus inkişaf yolunu və rəngarəngliyini şərtləndirmişdir.

6. Azərbaycan ədəbiyyatında romantizm cərəyanının formalaşması tarixin ağır mərhələsi – Birinci rus inqilabı, Birinci dünya müharibəsi, inqilabi çevrilişlər, Xalq Cümhuriyyətinin qurulması və süqutu dövrünə təsadüf etmişdir. Azərbaycan romantizmi tənqidi realizmlə paralel inkişaf etmiş, sovetlər dövründə ideoloji baxımdan sıxışdırıldığından tarixin səhnəsindən tez getmiş, yalnız romantik pafos şəklində bədii ədəbiyyatda öz yerini saxlamışdır.

7. Amerika romantizminin inkişaf yolunda əsasən aşağıdakı mərhələlər fərqləndirilir: preromantizm (XVIII əsrin sonu – XIX əsrin ilk onilliyi), erkən dövr (XIX əsrin ikinci onilliyindən – 30-cu illərin ortalarına qədər), yetkinlik dövrü (30-cu illərin ortalarından – 50-ci illərin ortalarına qədər), tənəzzül dövrü (50-ci illərin ortalarından Vətəndaş müharibəsi

illərinə qədər). Bununla belə, Amerika romantizminin inkişaf dövrünü tam dəqiqliklə göstərmək və onun bütövlükdə bütün bölgələrə şamil oluna biləcək dövrləşməsini təklif etmək olduqca çətindir. Təklif olunmuş mövcud dövrləşmələr əsas etibarilə Şimal ştatlarına aid edilə bilər, Cənub ştatları ədəbiyyatı həmin bölgüyə qismən müvafiq gəlir, Qərb ştatlarında isə ədəbiyyat əslində Vətəndaş müharibəsindən sonra, özü də romantik ədəbiyyat kimi formalaşır və əsrin sonuna qədər aparıcı mövqelərini saxlayır.

8. Azərbaycan romantizminin ilkin mərhələsi kimi romantiklərin ədəbiyyata gəldiyi və ilk əsərlərini yazdıqları 1905-1907-ci illər Birinci rus burjua-demokratik inqilabı dövrünü və bütövlükdə ondan sonrakı irtica illərini götürmək olar. Azərbaycan romantizminin ikinci, yetkinlik dövrü Birinci dünya müharibəsi və Azərbaycan Demokratik Respublikası illərini əhatə edir. Üçüncü dövr kimi 20-ci illəri götürmək məqbuldur. Bu dövrdə artıq romantizmin ədəbi arenadan sıxışdırılması tendensiyası başlayır. 30-cu illər romantizmi bu cərəyanın məqsədyönlü şəkildə sıxışdırılması və əsas nümayəndələrinin fiziki məhv edilməsi ilə səciyyələnir.

9. Amerika romantizminin özəllikləri onun maarifçiliyə qarşıdurmada olmaması, sosial bazasının müxtəlif ictimai-siyasi dəyərləri müdafiə etməsi və vahid nəzəri fikir ətrafında birləşməməsi, şəxsiyyətlə cəmiyyət probleminə xüsusi diqqət yetirilməsi, Amerika romantiklərinin Avropa romantiklərindən fərqli olaraq gerçəkliklə daha sıx bağlı olmalarındadır, habelə onun daxilində heç bir ədəbiyyatda analoqu olmayan köləliyə qarşı yönümlənmiş Şimal abolisionist ədəbiyyatı, köləliyi vəsf edən Cənub ədəbiyyatı, vestern janrını doğurmuş Qərb ştatları ədəbiyyatı kimi bölgünün olması ilə bağlıdır.

10. Azərbaycan romantizminin özəllikləri birinci növbədə onun tənqidi realizmlə paralel yaranıb inkişaf etməsi, çox qısa tarixi dövr ərzində parlaq ədəbi nümunələr yaratdıqdan sonra kənar təzyiqlər altında ədəbi arenadan sıxışdırılmasında özünü göstərir. Azərbaycan romantizmini Qərb ədəbiyyatlarındakı romantizmdən fərqləndirən əsas xüsusiyyətlərdən biri onun "qayıdan" romantizm olması (yəni "ideallaşdırma" prinsipindən çıxış etsək, yeni dövrdə orta əsrlər Şərq romantizminə bir növ qayıdış nəzərdə tutulur) və romantizmin inkişafında romantik pafosun, Qərb ədəbiyyatlarında olduğu kimi, yalnız nikbinlikdən bədbinliyə, yetkinlikdən sonra tənəzzülə doğru inkişafı deyil, həm də, qısa bir müddətə də olsa, yenidən romantik nikbinliyə qayıdışdır.

11. Amerika və Azərbaycan romantizmləri arasında tipoloji oxşar məqamlar bunlardır: romantizm maarifçiliyin davamı kimi çıxış etmiş,

romantiklər müstəqil milli ədəbiyyatın formalaşması (Amerika) və yeniləşməsində (Azərbaycan) müstəsna rol oynamış, ədəbiyyata yeni mövzular və janrlar gətirmiş, sosial gerçəkliyə yaxın olub, kəskin sosial problemlər qaldırmış, mövzu axtarışında yerli materiala daha çox müraciət etmiş, fəlsəfi baxımdan klassik Şərq mistiklərinə yaxın olmuş və s.

*Tədqiqatın metodu və metodoloji bazası.* Tədqiqat işində əsasən müqayisəli-tipoloji metoddan istifadə edilmişdir. Başlıca önəm tarixilik prinsipinə verilmişdir. İşin metodoloji bazasını Azərbaycan, Amerika, Rusiya və s. ölkələrin aparıcı ədəbiyyatşünaslarının romantizm və romantiklər haqqında yazdıqları tədqiqatların nəzəri müddəaları təşkil edir.

*İşin aprobasiyası.* Dissertasiya işinin mövzusu ilə əlaqədar olaraq aparılmış tədqiqatların əsas müddəaları öz əksini monoqrafiya, metodik vəsait, Azərbaycanda və xarici ölkələrdə Azərbaycan, rus və ingilis dillərində çap olunmuş məqalə və tezislərdə, ölkədə və onun hüdudlarından kənarda keçirilmiş beynəlxalq konfranslarda edilmiş məruzələrdə tapmışdır

*İşin quruluşu.* Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar göstərilir, işin nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, quruluşu haqqında məlumat verilir.

*"Romantizm metod və cərəyan kimi"* başlıqlı *birinci fəsil* dörd yarımfəsildən ibarətdir.

Dissertasiyada "romantizm" məfhumu ilə bağlı müxtəlif mövqelərə[1] münasibət bildirilməklə, əsas götürülən ünvanlar vurğulanır.

Romantizm ətrafında bu gün də davam edən mübahisələr birinci növbədə romantizmin metod, cərəyan və pafos kimi məna tutumunun müəyyənləşdirilməsi, cərəyan kimi nəzərdən keçirdikdə onun bütün rəngarəngliyinin nəzərə alınması, bir ədəbiyyat daxilində üslub çoxluğunun olması, müxtəlif milli ədəbiyyatlarda romantik əsərlər arasında tipoloji

---

[1] В.Ванслов. Эстетика романтизма. М.: Искусство, 1966, 397 с.; Г.Поспелов. Теория литературы. М.: Высшая школа, 1978, 362 с.; К.Анкудинов. Возвращение романтизма / http:/ stihi.ru/2008/08/28/2869; А.Гаджиев. Романтизм и реализм. Баку: Элм, 1972, 348 с.; Европейский романтизм. М.: Наука, 1973, 506 с. və b.

oxşarlıqların və fərqli məqamların mövcudluğu ilə bağlıdır.

Romantizmdə ikialəmlilikdən, yəni real və xəyali aləmlərin qarşı-qarşıya qoyulmasından danışmaq mümkündür. Bu ikialəmliyin ifadə üsulu simvolizm idi. Amma bu simvolizmi XIX əsrin ikinci yarısında Avropa ədəbiyyatlarında geniş vüsət tapmış ədəbi axınla qarışdırmaq olmaz. Burada söhbət əslində romantizm cərəyanı üçün səciyyəvi olan bədii təsvir və ifadə vasitələrinin rəmziliyindən gedə bilər. Bundan çıxış edərək göstərmək olar ki, romantizmdə iki aləm üzvi vəhdətdə çıxış edir və bu vəhdət bədii təsvir və ifadə vasitələrinin köməkliyi ilə yaradılır.

Sənətdə və ədəbiyyatda gerçəklikdə baş verənlər iki yolla qavranılır, müşahidə olunmuşlar arasında seçim və ümumiləşdirmə aparılır ki, bu da seçim aparanın dünyagörüşü, müəllif mövqeyi ilə bağlıdır. Bu yerdə metoddan - sənətdə mövcud olan iki əsas seçim və ümumiləşdirmə metodlarından - realist və romantik metodlardan danışılır.

"Romantizm"i (cərəyan və dünyagörüşü - metod kimi) romantika ilə qarışdırmaq olmaz. Romantika - vüsət, pafosdur. Romantika romantizmsiz ola bilər (məsələn, sovet dövründə xam torpaqların, BAM-ın romantikası; xoşbəxt məhəbbətin romantikasında da romantizm yoxdur). Romantikasız romantizm də mümkündür (A.Kamyu və Sartrın ekzistensializmi romantizmdir, amma onlarda romantika yoxdur).

Əslində, "romantika" sözü ilə birgə işlədilən "pafos" sovet məfhumu olub, sosialist realizminə aid edilən əsərlərdə romantizmin təzahürünə bəraət qazandırmaq üçün tətbiq olunmuşdur. Hazırda romantik pafosdan danışmağa əsas yoxdur, çünki bu halda realist pafosdan da danışmaq lazım gələrdi, bu isə mümkün deyil. Zənnimizcə, iki yaradıcılıq metodundan və onların tətbiqi ilə yaradılan cərəyanlar və axınlardan danışmaq daha məqsədəuyğundur.

Fəslin birinci yarımfəslində *"Romantizm ədəbi metod kimi"* problemi nəzərdən keçirilir. Göstərilir ki, metod sözü çox vaxt üsul, priyom, yol mənasında işlədilir və hələ də birmənalı şəkildə qavranılmır.

Qeyd olunan problemlə bağlı antik müəlliflərdən tutmuş bir sıra müasir alimlərin fikirləri nəzərdən keçirilir və müxtəlif mənbələrdə verilmiş təriflərin çox vaxt fərqli olduğu göstərilir. O cümlədən qeyd olunur ki, əksər tədqiqatlarda metod anlayışı üslub anlayışı ilə vəhdətdə götürülür. Bununla belə heç bir ədəbiyyatda metodun dəqiq hüdudları, onun üslubdan və cərəyandan fərqi aydın göstərilmir.

Sənətdə və ədəbiyyatda gerçəklikdə baş verənlər iki yolla qavranılır, müşahidə olunmuşlar arasında seçim və ümumiləşdirmə aparılır ki, bu da seçim aparanın dünyagörüşünü, müəllif mövqeyini daşıyır. Bu yerdə biz

metoddan - sənətdə mövcud olan iki əsas seçim və ümumiləşdirmə üsullarından - realist və romantik metodlardan danışmış oluruq.

Bədii metodun tərifləri kifayət qədər çox olsa da, onlarda əks olunan ümumi məqamlar əsasən üst-üstə düşür, amma həmin təriflər diqqətlə nəzərdən keçirildikdə tədqiqatçıların özlərində bu ədəbi hadisə haqqında bitkin fikrin formalaşmadığı aydın olur.

Ədəbiyyatşünaslıqda metod, cərəyan anlayışlarını bir-birindən ayırmaq olduqca çətindir. Üstəgəl romantizm və realizmə birmənalı yanaşma aşkarlamaq bir qədər problematikdir. Bu da bir neçə məqamla bağlıdır. Birincisi, sosializmin rəsmi ədəbi cərəyan olması ədəbi fikirdə müxtəlifliyə və müxalifliyə yer qoymurdu. Lakin yuxarıdan gələn doğmalarla daxilən razılaşmayan tədqiqatçılar sanki öz dediklərini özləri təkzib etməkdə daha başqa bir fikrə yer qalmasını nəzərə çarpdırırdılar. Məsələn, Azərbaycan ədəbiyyatşünaslığında romantizmin ilk görkəmli tədqiqatçılarından olan Məmməd Cəfər yazırdı: “Hər şeydən əvvəl demək lazımdır ki, haqqında bəhs etdiyimiz 1905-1917-ci illər romantizmini xüsusi ideya məzmunu olan yaradıcılıq metodu adlandırmaq olar.

Əgər biz yaradıcılıq metodu anlayışını ümumi məfkurəçi-fəlsəfi, bədii idrak prinsipləri və müəyyən estetik prinsipləri əhatə edən bir anlayış kimi alsaq (bu, şübhəsiz, belədir) bu illərin romantizmi ayrıca bir yaradıcılıq metodudur.”[1] Burada metod anlayışını tədqiqatçı yaradıcılıq tipi mənasında deyil, həmin yaradıcılıq tipinin konkret dövrdə təzahür prinsipləri mənasında işlədir. Misal gətirdiyimiz mövqe ilə prinsipcə razılaşaraq, qeyd etməyi lazım bilirik ki, “Azərbaycan ədəbiyyatında romantizm” monoqrafiyasında bir çox hallarda metod və cərəyan terminləri sinonim kimi işlədilir ki, şərti mənada bu, qəbul oluna bilər.

Romantizm və realizm metodları arasında əsas fərqləndirici məqam real və ideal anlayışları ilə bağlıdır: ayrı-ayrı keyfiyyətlərin seçilərək ayrı-ayrı surətlərdə bariz göstərildiyi, yəni bədii surətlərin müəllifin iradəsiylə konkret keyfiyyətlərin daşıyıcısına çevrildiyi ədəbi hadisədə romantizm üstünlük təşkil edir, həmin keyfiyyətlərin bu və ya digər nisbətdə bütün surətlərdə birləşdiyi əsərlərdə realizm üstünlük təşkil edir.

*“Romantizm ədəbi cərəyan kimi”* adlı ikinci yarımfəsildə qeyd olunur ki, romantizmin klassik tərifi (“müstəsna qəhrəmanların müstəsna şəraitdə”) ümumi şəkildə doğru olsa da, heç də həmişə özünü doğrultmur.

Bir ədəbi cərəyan kimi romantizmi bütöv bir tamlıq kimi nəzərdən

---

[1] Məmməd Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərb. SSR EA, 1963, s. 18.

keçirmək qeyri-mümkündür. Bunun da əsas səbəbi nəinki müxtəlif milli ədəbiyyatlardakı romantizmlərin fərqli olması, hətta eyni bir ədəbiyyat daxilində onun təzahürlərinin ən müxtəlif şəkildə olması və hər bir müəllifin yaradıcılığında romantizmin fərdi xüsusiyyətlər kəsb etməsindədir.

Romantizmin tədqiqatçıları onun bir ədəbi cərəyan kimi XVIII əsrin sonunda yaranıb XIX əsrin 30-cu illərində mövqeyini tənqidi realizmə verdiyini söyləsələr də, bu yalnız qismən, özü də bəzi Qərbi Avropa ədəbiyyatlarına nəzərən doğrudur. Bütün dünya ədəbiyyatını götürdükdə isə romantizmin yaranıb, aparıcı cərəyan olduğu dövrü bütövlükdə konkret göstərmək mümkün deyil. Məsələn, Şərq ədəbiyyatlarında orta əsrlər ədəbiyyatını əsasən tipoloji baxımdan romantizm cərəyanına aid edə bildiyimiz halda (yaradıcılıq tipi kimi), Avropada onun aparıcı mövqeyi xeyli sonraya, XIX əsrin əvvəllərinə təsadüf edir, əsrin ortalarında əksər ədəbiyyatlarda mövqeyini tənqidi realizmə verdikdən sonra romantizm XX əsrin əvvəllərində Qərbdə neoromantizm, Şərqdə isə romantizm şəklində ədəbi arenaya qayıdır.

Romantizmin bütün milli növlərinin əsasında – həyat materialının seçilməsi və ümumiləşdirməsi– romantizm metodu dayanır. Amma bununla belə qeyd etmək lazımdır ki, romantizmin hər bir milli növü öz yolunu keçir, qarşısında duran konkret məsələləri həll edir və onları yerinə yetirdikdən sonra ikinci plana çəkilərək yerini realizm metoduna versə də, hətta realistik əsərlərdə də romantik pafos kimi təzahür edir və bəzi tədqiqatçıların "romantik realizm"dən və ya "realistik romantizm"dən danışmasına əsas verir.

Hər bir milli ədəbiyyat tarixində romantizmin bir və ya bir neçə dirçəliş dövrü müşahidə olunur. Ədəbi prosesdə romantik metodun aparıcı mövqeyə çıxması, yəni realist metoda nisbətən üstünlük təşkil etməsi birmənalı şəkildə konkret illər çərçivəsi ilə məhdudlaşdırıla bilməz. Hətta eyni bir yazarın əsərlərini nəzərdən keçirdikdə onlarda hansı metodun ünsürlərinin aparıcı yer almasını müəyyənləşdirmək olduqca çətindir. Lakin bununla belə romantizmin bir ədəbi-bədii hadisə kimi müəyyən dövrlərdə, özü də tarixin dönərli məqamlarında önə çıxması danılmazdır. Məsələn, Şərq ədəbiyyatlarında onun orta əsrlərdə geniş vüsət aldığını qeyd etmək mümkündür. Bu da təsadüfi deyil. Həmin dövrdə qlobal müharibələr gedir, ölkələrin sərhədləri dəyişir, insanlar sabahkı günə əminliyi itirirdilər. Belə bir zamanda ideal axtarışı, ideal aləmə müraciət ön plana çıxır. Bundan başqa, həmin dövrdə Şərq aləmində mistisizm - sufilik ideologiyası geniş yayılmış və bədii ədəbiyyatın həm məzmununa, həm də poetikasına dərin nüfuz etmişdi. Lakin artıq XVII-XVIII əsrlərdə Orta və Yaxın Şərq ölkələri

ədəbiyyatlarında müəyyən tənəzzül müşahidə olunduğundan, Şərq romantizmi nümunələri hesab edə biləcəyimiz əsərlər həmin illərdə, demək olar ki, yaranmamışdır. Təsadüfi deyil ki, Avropada romantizm ümumiləşdirmə metodunun önə çıxaraq romantizm cərəyanına rəvac verdiyi dövrdə Şərq ədəbiyyatlarında ona yer olmadı və yalnız XX əsrin əvvəllərində siyasi-ictimai təlatümlər dövründə bu ədəbiyyatlarda romantizm cərəyanı formalaşdı. Bu cərəyan Şərq ədəbiyyatlarında öz nəzəriyyəsini yaratmasa da, bədii təcrübəsi ilə bütövlükdə Avropa romantizmi kimi tanınan cərəyana yaxın olduğunu göstərdi. Amma nəzərə almaq lazımdır ki, bu yaxınlıq tipoloji yaxınlıqdan başqa bir şey deyildir. Şərq romantizmi Qərb ədəbiyyatlarından alınma deyil, öz kökünə qayıtmadır, çünki Şərq romantiklərinin vəsf etdikləri ideallar kənardan alınmayıb, əksər hallarda Şərqin öz tarixi keçmişindən qidalanmışdır.

Romantizmin bir ədəbi cərəyan kimi fərqləndirilib nəzərdən keçirilməsində əsasən onun dünyaya baxış kimi meyarlarından danışmaq mümkündür:

- Romantizm fərdin seçim azadlığını tanıyır, qəbul edir və hətta bu seçim azadlığı romantik refleksiyanın əsas predmeti olur;
- Mövcudluq romantik üçün iki antaqonist başlanğıca - "Mən"ə və "qeyri-Mən"ə - bölünür və bu iki başlanğıc öz aralarında fəal qarşılıqlı təsirdə olurlar;
- Romantik əsərin əsas ideyası həmişə bu iki başlanğıcın qarşılıqlı münasibətindən asılıdır. Həmin başlanğıclara müəllif münasibəti bəzi hallarda olduqca geniş olur və müəllif heç də "Mən" tərəfdə olmur;
- Romantizmin klassik tərifində "müstəsna qəhrəmanların müstəsna şəraitdə" verilməsi önə çəkilir. Ümumi şəkildə bu müddəa doğru olsa da, heç də həmişə özünü doğrultmur. Romantik qəhrəman "müstəsnadır", çünki "Mən" və "qeyri-Mən" arasındakı konflikti çox yaxından qəbul edir. Həmin qəhrəmanların düşdükləri vəziyyət heç də həmişə ekzotik olmur, amma əksər vaxtlarda adilikdən kənar olur.
- Romantik qəhrəman üçün gerçəkliyə neqativ münasibət, bədbinlik, mistifikasiya və s. səciyyəvidir.

Aydındır ki, romantizmlə qarşıdurma yaradan dünyagörüşü və estetik sistemlərdə həmin parametrlər yoxdur, çünki:

- Klassisizm fərdin seçim azadlığı ideyasını qəbul etmir;
- Realizm "Mən"i varlıqdan fərqləndirmir, varlığı tam halında nəzərdən keçirir;
- Postmodernizm "Mən"i varlıqdan ayırmır;
- "Orta əsrlər" (teokratik) tipli sənət fərdin seçim azadlığı ideyasına

düşməni münasibətdə olub, onu "iblis şirnikdirməsi" adlandırır;

- Folklor və qeyri-romantik mifologizm "Mən"i varlıqdan ayırmır.

Romantiklər həyatın qismən kamilləşdirilməsini deyil, onun bütün ziddiyyətlərinin bütövlükdə həll olunmasını arzulayırdılar. Onları fantastika, əfsanələr və bütövlükdə xalq yaradıcılığı, ötən tarixi dövrlər daha çox cəlb edirdi.

Onlar maddi maraqlara güclü ehtirasları və ruhun həyatını qarşı qoyurdular. Romantikləri subyektin daxili aləmi daha çox cəlb edir. Onlar üçün insan balaca bir kainat, mikrokosm idi.

Romantizm idealı göstərməklə və ya əsaslı çevriliş etməklə dünyanı dəyişməyə can atsa da, öz daxili aləminə quylanmaqla real gerçəklikdən uzaqlaşsa da, tənha zahid olsa və ya arxasınca insan kütlələri aparsa da, romantik qəhrəman şüurla deyil, hisslər, duyğularla yaşayır.

Romantizm olduqca miftutumlu və mifogen cərəyandır. Romantik ədəbiyyat mifləri formalaşdırır, miflər kütləvi təfəkkürü dəyişdirərək onu mifoloji təfəkkürə çevirir, kütləvi mifoloji təfəkkürün təntənəsi romantizmin çiçəklənməsinə rəvac verir.

Beləliklə, romantizmin ilkin prinsipi "ikialəmlik", yəni real və təsəvvür olunanın qarşı-qarşıya qoyulması olmuşdur. İdealın daşıyıcısı olan romantizmin dini dəyərlərlə əlaqəsi romantik əsərlərin bir çoxunda bu və ya digər dərəcədə özünü göstərir. Təsadüfi deyil ki, bu baxımdan yanaşdıqda Şərq mistiklərinin poeziyası ilə bir sıra Avropa və Amerika romantiklərinin əsərləri arasında tipoloji yaxınlıq və hətta bəzi məqamlarda eynilik dərəcəsinə çatan yaxınlıq müşahidə olunur. Bu yaxınlıq obrazlardan poetikaya qədər müxtəlif səviyyələrdə və dərəcədə ola bilir.

Fəslin üçüncü yarımfəsli *"Romantizmin tarixi yolu, tipləri və təzahür formaları"* adlanır. Romantizmin bütövlükdə bir ədəbi-bədii hadisə kimi nə olduğunu aydınlaşdırmaq üçün onun yarandığı ehtimal edilən dövrü diqqətlə nəzərdən keçirmək, onu doğuran səbəbləri, sosial və fəlsəfi zəminini müəyyənləşdirmək, bundan öncə isə heç olmasa məfhumun çoxmənalılığını aradan qaldırmaq və ya onun müxtəlif məna çalarları arasında müəyyən hədd qoymaq lazımdır.

Romantizmin bir ədəbi cərəyan kimi nə vaxt və hansı şəraitdə yaranması məsələsində tədqiqatçıların əksəriyyəti yekdildir. Onların fikrincə, romantizm bilavasitə Böyük Fransa inqilabından dərhal sonra formalaşmağa başlamış, XIX əsrin ilk illərindən isə bir çox milli ədəbiyyatların aparıcı tendensiyasına çevrilmiş, 30-cu illərdən yaranan tənqidi realizmlə xeyli paralel mövcud olmuş və tədricən yerini bu cərəyana vermişdi. Bu deyilənlər romantizm ədəbiyyatı praktikasının

nəzəriyyə ilə müşayiət olunduğu bəzi Avropa ədəbiyyatları üçün, o da qismən, doğrudur. Bütövlükdə dünya ədəbiyyatına bu mövqedən yanaşdıqda isə romantizmin hüdudlarını müəyyən tarixi dövrlə məhdudlaşdırmaq mümkün deyil. Məsələn, Şərq ədəbiyyatlarında, o cümlədən Azərbaycan ədəbiyyatında, romantizm yenidən (çünki orta əsrlər Şərq ədəbiyyatı əslində bütövlükdə romantizm çərçivəsindədir) XX əsrin əvvəllərində canlanmışdır. Orta əsrlərdə Azərbaycan ədəbiyyatı, demək olar ki, bütün Şərq ədəbiyyatları (ərəb, fars, türk, tatar və b.) ilə sıx bağlı idi və bu bağlılıq əsərlərin ərəb, fars və türk dillərində yaradılması ilə məhdudlaşmır, yaradılan əsərlərin forma və məzmun yaxınlığında, həm də "gerçəkliyə yanaşma, həyat faktlarının seçilməsi və ümumiləşdirilməsi prinsiplərində də" təzahür edirdi ki, bu da tədqiqatçılara yalnız İntibah realizmindən deyil, həm də orta əsrlər Şərq romantizmindən də danışmağa əsas verir.

Şərq ədəbiyyatlarında, o cümlədən Azərbaycan ədəbiyyatında, romantizm cərəyanının orta əsrlərdə özünə yer aldığı, XX əsrin əvvəllərində isə müəyyən tarixi, ictimai-siyasi hadisələrlə bağlı yenidən canlandığı və ya qayıtdığı nəzərə alınsa, hər dəfə cərəyanın ön plana çıxmasının müəyyən hadisələrlə bağlılığına dair fikirlər söylənilir. Bu fikirlərdə əsas fərq Avropa romantizminin yaranması, konkret tarixi hadisə ilə əlaqələndirilməsi və buna görə də Şərq romantizminin bu "qəlibə" sığmaması ilə bağlıdır.

Dördüncü yarımfəsil *"Romantizm cərəyanının yaranmasını şərtləndirən tarixi şərait və onun formalaşma prosesi"* adlanır.

Bu yarımfəsildə əsas diqqət Avropa romantizmi cərəyanı ilə çox vaxt eyniləşdirilən, lakin yaranışından özünəməxsusluğu ilə seçilən Amerika romantizminin özəlliklərinə yetirilir.

Amerika romantizmini Avropa romantizmindən fərqləndirən əsas məqam ədəbi ənənələrlə bağlıdır. Amerika romantiklərinin sələfləri yox idi. Amerika ədəbiyyatının özü Amerika romantiklərindən başlanğıc almışdı. Onlar Avropa ədəbiyyatını və müxtəlif yönümlü kitabları çap edib yayan çapçıları sıxışdırıb amerikalı yazıçını önə çəkməyə və həmvətənlərini onları oxumağa, onlarla hesablaşmağa vadar etmişdilər.

Amerika romantizmi çox münbit zəmində yaranıb çiçəklənmiş və uzun müddət ucalan xətt üzrə inkişafını saxlaya bilmişdi. Bu zəmin Amerikanın həqiqətən də fəth edilməsi, həyatın özündə romantikanın olması ilə bağlı idi. Avropa romantiki həyatda qəhrəmanı görmürdü, Amerika gerçəkliyində isə onlara hər addımda təsadüf olunurdu. Amerikada torpaqların fəth edilməsi həm də demokratiyanın bütün - yaxşı və pis - təzahür formalarında çiçəklənməsi dövrü idi. Bu dövr Amerikada həm də ixtiralar, kapital yığımı dövrü idi. Artıq o dövrdə sərvət yığımı ön plana

keçməyə başlasa da, onda həm də yeni cəmiyyət, yeni dövlət qurmaq, yeni əraziləri məskunlaşdırmaq istəyi də var idi və bir çox hallarda həmin bu istək aparıcı tendensiyaya çevrilirdi. Avropada buna bənzər heç nə yox idi. Amerika burjuaziyası Avropa burjuaziyası ilə müqayisədə daha sağlam idi, çünki burada məhz onlar - iş adamları mütləq çoxluq təşkil edirdilər və burada hər kəsin zənginləşmək şansı var idi. Buna görə də Amerika romantizmi, xüsusilə də ilkin mərhələdə, daha optimist və rasional idi.

Romantizm cərəyanı Amerika ədəbiyyatının inkişafı tarixində böyük və müstəsna əhəmiyyəti olan bir cərəyan, onun yaranıb təşəkkül tapdığı dövr isə bu ədəbiyyatın inkişafı tarixində özünəməxsusluğu ilə seçilən, birmənalı qiymətləndirilməyən dövrdür. Onu İngiltərənin müstəmləkəsi ərazisində yaranan ədəbi əsərlərdən müstəqil milli ədəbiyyata çevrilməsinə və dünya ədəbiyyatında aparıcı yerlərdən birini tutmasına aparan yol bütövlükdə romantizm çərçivəsində keçilmişdir. Lakin bu ədəbiyyat yarandığı gündən XX əsrə qədər vahid milli dəyərləri əks etdirən bir ədəbiyyat kimi qavranıla bilməyib. Bunun da əsas səbəblərindən biri bütün göstərilən müddət ərzində Amerika ərazisinin tədricən məskunlaşdırılması, bölgələr arasında inkişaf səviyyəsinə görə kəskin fərqlərin olması və s. olmuşdur.

XIX əsrin əvvəllərindən başlayaraq kapitalizmin sürətlə inkişaf etdiyi Şimalla quldarlığın mövqelərinin gücləndiyi Cənub arasında ziddiyyətlər kəskinləşir, bir neçə dəfə dövlətin parçalanmasına cəhdlər edilir və nəhayət, 1861-ci ildə başlayan Vətəndaş müharibəsinin gedişində quldarlıq ləğv edilir. Təsadüfi deyil ki, məhz bu dövrdə əsasən ölkənin Şimal ştatlarında abolisionist hərəkatı güclənir, Cənubda isə sistemin aliliyini əsaslandırmaq cəhdləri edilir.

Belə bir tarixi şəraitdə gerçəklikdə baş verənlər öz əksini ədəbiyyatda tapmalı idi. Amerika yazarları məhz gerçəkliyə üz tutaraq onu əks etdirməyə çalışsalar da, idealla, yəni görmək istədikləri ilə həyatda gedən proseslər arasında bir uyğunsuzluq görürdülər.

Yeni qəhrəman saf, cazibədar, ehtiraslı, qəlbi təmiz və müdrik olmalıydı. Gerçəklik belə qəhrəmanın nümunəsini vermədiyindən onu yazıçı təxəyyülü yaratmalı və onda gözəllik, ədalət, həqiqət haqqında arzularını əks etdirməliydi. Bu kimi qəhrəman isə romantik ədəbiyyatın ən səciyyəvi xüsusiyyətlərindəndir. Beləliklə, romantizmin yaranmasını həyatın tələbi və ya başqa sözlə, sosial sifariş kimi dəyərləndirmək olar.

Amerika romantizminin ədəbi səhnədən getmə vaxtı barədə də vahid fikir yoxdur. Vətəndaş müharibəsindən sonra romantizmin mövqeləri zəifləmiş və realizm ön plana çıxmağa başlamışdı. Amerika romantizminin

ən parlaq nümayəndələri Vətəndaş müharibəsindən sonra da yazıb-yaratmaqda davam etmişlər və həmin dövr Amerika ədəbiyyatında səviyyəli realist yazıçıları görmürük. Misallara müraciət edək: H.Lonqfello ölən gününədək (1882) şöhrətin zirvəsində qalmışdı, U.Uitmen şair kimi qiymətini ölümündən (1892) sonra, Dikinson əsl qiymətini isə XX əsrin ortalarında almışdı. Hətta XX əsrdə də Amerika ədəbiyyatında romantik ədəbiyyata tələbin olması onun ədəbi səhnədən nə vaxt getməsi məsələsini açıq qoymağa əsas verir.

Konkret olaraq Amerika romantizminin keçdiyi yol bunu söyləməyə əsas verir ki, romantizmin bir bədii metod və cərəyan kimi formalaşmasını bütün dünya ədəbi prosesində bilavasitə yalnız Fransa inqilabına və alman fəlsəfəsinə bağlamaq ən azı onun özünü məhdudlaşdırmaqdır.

Beləliklə, Amerika romantizminin inkişaf yolunu nəzərdən keçirmək üçün onun yarandığı tarixi dövrü, ictimai-siyasi şəraiti nəzərdən keçirmək, həmin şəraitin və geniş mənada tarixi gerçəkliyin ədəbiyyatda hansı səpkilərdən əks olunduğunu öyrənmək, bütövlükdə Amerika ədəbiyyatının İstiqlal müharibəsindən Vətəndaş müharibəsinə qədərki dövrdə keçdiyi yol, həmin ədəbiyyatın formalaşmasında müstəsna xidmətləri olmuş yazarların yaradıcılığı üzərində dayanmaq lazımdır.

Azərbaycan ədəbiyyatında romantizmin inkişaf yolu, əslində, Amerika romantizminin yolundan heç də asan olmamışdı. Əlbəttə, ədəbiyyatda aparıcı yer tutması, yazarları və onların yaratdıqları əsərlər baxımından bu iki ədəbiyyatı müqayisə etmək çətindir, lakin bununla belə qeyd olunmalıdır ki, romantizmin Azərbaycan ədəbiyyatında tutduğu yer xeyli geniş, verdiyi töhfələr isə olduqca dəyərlidir.

Bütün ədəbi cərəyanlar kimi, romantizm də birdən-birə formalaşmamışdır. Başlanğıcını orta əsrlər Şərq ədəbiyyatlarından və müxtəlif xalqların məhəbbət və qəhrəmanlıq dastanlarından alan romantizm bir ədəbi cərəyan kimi XVIII əsrin sonu – XIX əsrin əvvəllərində alman ədəbiyyatında formalaşmış, alman şair və yazıçılarının estetik axtarışları və həmin dövr alman filosoflarının (İ.Kant, İ.Q.Fixte, F.Şellinq) idealist fəlsəfəsi ilə birgə insanın yaradıcı ruhunun azadlığı haqqında təlimə çevrilmişdi. Romantizm terminini ilk dəfə alman nəzəriyyəçisi Fridrix Şlegel işlətmişdi. O, 1801-1804-cü illərdə Berlində, daha sonra isə Vyanada oxuduğu mühazirələrində romantizmi dövrün tələblərinə ən çox uyğun gələn sənət forması kimi səciyyələndirmişdi.

Romantizm bir ədəbi cərəyan kimi konkret tarixi şəraitdə formalaşır, həyatın özünün tələbi ilə meydana gəlir və öz missiyasını yerinə yetirdikdən sonra tarixin səhnəsindən gedir. Lakin əksər vaxtlarda bir

məqam diqqətdən kənarda qalır. Romantizm tarixin müəyyən anında aparıcı cərəyan olsa da, o, bir romantik pafos kimi həmişə mövcud olmuş və olacaqdır. Bu isə başqa bir məqamı – romantizmin iki ədəbi metoddan biri kimi nəzərdən keçirilməsi məsələsini gündəmə gətirir.

Metodlar bu və ya digər ədəbi cərəyanlarda, axınlarda realizə olunur. Buna görə də metodlar iki olsa da, cərəyanların sayı daha çoxdur (antik realizm, intibah realizmi, klassisizm, sentimentalizm, romantizm, tənqidi realizm və s.). Axınların sayı isə daha çoxdur və onlar bu və ya digər şəkildə cərəyanların hər hansı birinə yaxınlaşır.

Əlbəttə, elmi yanaşma romantizmdə müəyyən ümumi tipoloji məqamların aşkarlanıb üzə çıxarılaraq sistemləşdirilməsini tələb edir və aydındır ki, belə tipoloji məqamlar məhz XIX əsrin əvvəllərində Avropa ədəbiyyatlarında geniş vüsət tapmış cərəyanda daha bariz görünür. Bu baxımdan romantizmin bir ədəbi cərəyan kimi məhz Avropada və azca sonra Amerikada təşəkkül tapması fikri doğrudur və mübahisə doğurmamalıdır. Lakin bir məqam nəzərə alınmaqla: Şərq ölkələrində romantizmin əsas xüsusiyyətlərini özündə daşıyan ədəbi əsərlərin yaranması müəyyən sosial, ictimai-siyasi hadisələrin təsiri altında, bir neçə əsr sonraya, XX əsrin əvvəllərinə təsadüf etdiyindən dünya miqyasında romantizm cərəyanının təzahürünü yalnız XIX əsrin birinci yarısı ilə məhdudlaşdırmağa əsas yoxdur.

Romantizm bir ədəbi cərəyan və dünyaya baxış kimi istənilən ehkamlaşdırmanı qəbul etmədiyindən onun müxtəlif dövrlərdə və ölkələrdə təzahürü eyni deyil. Yalnız bu müddəanı qəbul etdikdən sonra romantizmin tipologiyasından danışmaq mümkündür. Bu eyni zamanda həm bədii əsərdə yaradılan gerçəkliyin, həm əsərdə aparıcı olan vüsətin, həm də əsas qəhrəmanlar obrazlarının yaradılmasında bariz görünür. Lakin bunu da ehkama çevirmək olmaz. Eyni bir ədəbiyyatda romantizmin yaranış çağındakı qəhrəmanın əsas tipoloji xüsusiyyətləri onun yetkinlik və ya son mərhələsində yaradılan qəhrəmanın xüsusiyyətlərindən fərqlidir. Bu baxımdan yalnız ümumi tipologiyadan danışmaq və mütləq dövr və ədəbiyyatda təzahür edən ümdə xüsusiyyətləri vurğulamaq lazım gəlir.

İlk yaranışdan bu günə qədər realist və romantik metodlar bir-birindən təcrid olunmuş halda mövcud olmayıb, həmişə vəhdətdə çıxış ediblər. Lakin dövrün sənət əsərlərində onlardan biri üstünlük təşkil edib və məhz bunu nəzərə alaraq romantik və realist metoddan danışmaq mümkün olur.

Romantik üçün həyat tərzi qanunlar məcəlləsi deyil, o birdəfəlik verilmiş və dəyişilməz deyil. O, öncədən müəyyənləşdirilmir. Tədricən

uyğunlaşır və müəyyən üsullar, baxışlar ehkamlaşmağa başlayanda, romantik təxəyyül "göylərdən yerə enəndə" romantizmin mövcudluğuna son qoyulur. Romantizm dövrü başa çatır. Əgər sufilik hazırkı kosmos əsrində də özünü qoruyub saxlaya bilirsə, bu, ondakı mütəhərriklikdən, yeniləşmə qabiliyyətindən xəbər verir və onda romantik başlanğıcın realist baxışdan üstün olmasını göstərir. Bu isə Şərq romantizminin Şərqin klassik dövründə, lakin Avropadakından fərqli, mövcud olmasına, XX əsrin əvvəllərində isə Şərqdə yeni, fərqli, "yerə" daha yaxın şəkildə təzahür etməsinə dəlalət edir.

Amerika ədəbiyyatının formalaşması Amerika ədəbiyyatında romantizm cərəyanının təşəkkül tapıb inkişaf etməsi dövrünə təsadüf edir.

ABŞ-ın müxtəlif bölgələrinin zaman etibarilə fərqli məskunlaşdırılması və həmin bölgələrdə mədəniyyətin və ədəbiyyatın eyni bir vaxtda yaranmaması və ədəbiyyatda öz əksini tapan cərəyanların da fərqli yaranmasını şərtləndirmiş və buna görə də ABŞ-ın qərb ştatlarında romantizmin yaranması, şimal ştatlarında həmin cərəyan öz mövqelərini realizmə verdikdən sonrakı vaxta təsadüf edir.

Bu faktın özü olduqca maraqlıdır, çünki romantizmin yaranmasının bilavasitə Fransa inqilabı ilə əlaqələndirilməsi məsələsinə şübhə ilə yanaşmağa və müəyyən qədər bundan da çıxış edərək romantizmi bütün milli ədəbiyyatlarda bir cərəyan kimi yaranma şəraitlərini aşağıdakı kimi səciyyələndirməyə əsas verir: romantizm bir ədəbi cərəyan kimi tarixin dönüş anında, mövcud qaydalardan ümidsizlik son həddə çatanda, amma mövcud qaydaların dəyişdirilməsi nəticəsində məqsədə yetişməyəndə, yəni ideala can atma gerçəklikdən üz döndərməyə vadar edəndə yaranır. Bu deyiləni istənilən milli ədəbiyyata (əgər romantizm orada özünü göstərmişsə) şamil etmək olar və bu hər dəfə də özünü doğruldur. Bunu Azərbaycan ədəbiyyatında romantizmin yarandığı dövrün timsalında da görmək olar.

Dissertasiya işinin *"Amerika və Azərbaycan romantizmlərinin tarixi yolları"* adlanan *ikinci fəsli* 3 yarımfəsildən ibarətdir. *"Amerika və Azərbaycan ədəbiyyatlarında romantizm cərəyanının yarandığı tarixi şərait"* adlı birinci yarımfəsildə qoyulan problem müvafiq olaraq ayrı-ayrı paraqraflarda izlənilir. Qeyd olunur ki, bir ədəbi cərəyan kimi romantizm də gerçəkliyə söykənir, ondan qaynaqlanır və özünəməxsus vasitələrlə onu və ona münasibəti əks etdirir. Romantik pafos əksər vaxtlar tarixin keşməkeşli dövrlərində ön plana çıxır və romantik ümumiləşdirmə və əksetdirmə metodu ilə birləşdikdə ədəbi cərəyan şəklində təzahür edir. Artıq qeyd olunduğu kimi, Avropada romantizmin bir ədəbi cərəyan kimi formalaşması Fransa burjua inqilabından sonrakı illərə təsadüf etmişdir.

Lakin onu bütövlükdə və yalnız həmin tarixi hadisə ilə bağlamaq doğru olmaz. Əslində romantizm nəzəri zəmin kimi alman idealist fəlsəfəsinə söykənir və bu cərəyan məhz alman ədəbiyyatında daha bariz təzahür edir. Bundan başqa, romantizmin əsrin əvvəllərində sırf feodal dövləti olan Rusiyada, Rusiyanın müstəmləkəsi Polşada və bu kimi başqa ölkələrin ədəbiyyatlarında da özünə yer alması onun yaranışını sırf bir tarixi hadisə ilə izah etməyin doğru olmadığını göstərir. Romantizmin yaranması üçün bir neçə məqam üst-üstə düşməlidir. Romantizm üçün səciyyəvi olan əsas məqamlar olmadıqda romantik pafosdan və ya müəllifin müəyyən spesifik poetik vasitələrə müraciətindən danışmaq üçün əsas olmazdı.

Amerikada romantizmin ilk cücərtiləri İstiqlal müharibəsi ərəfəsində və illərində romantik pafos şəklində təzahür etmiş və hazırda bir sıra müəlliflər tərəfindən preromantizm kimi dəyərləndirilir. Amerika "inqilabı"nın Fransa inqilabından bir qədər əvvəl baş verdiyi nəzərə alınsa və romantizmin məhz inqilabın nəticəsi olması aksioma kimi götürülsə, romantizm burada daha tez formalaşmalıydı. Lakin Amerika ədəbiyyatının təcrübəsi göstərir ki, romantizmi mümkün edən bir neçə şərt birləşməyincə, onun formalaşmasından danışmaq mümkün deyil. Əlbəttə, bunlardan biri və birincisi gerçəklikdə inqilabi dəyişikliklərdir. İkincisi, cəmiyyətin həmin inqilabın nəticələrindən bu və ya digər yönümdə istifadəyə ümid etməsi və ya onlardan "küskünlüyü"dür. Üçüncüsü isə gerçəkliyə romantik (nikbin və ya bədbin olmasından asılı olmayaraq) münasibəti əks etdirməyə qabil olan ədəbi təcrübənin olmasıdır. Əlbəttə, Amerika ədəbiyyatında inqilabdan dərhal sonra romantizm ədəbi cərəyan kimi formalaşa bilməzdi, çünki həmin dövrdə müstəqil milli Amerika ədəbiyyatının özü yox idi. Lakin Azərbaycan ədəbiyyatında romantizm cərəyanının inqilabdan dərhal sonra formalaşması qanunauyğun sayıla bilər, çünki romantik pafosu, inqilabın doğurduğu fikirləri əks etdirə biləcək ədəbi təcrübə (orta əsrlər romantik poeziya) mövcud idi və söhbət onun yeni tarixi şəraitdə yeniləşməsindən gedə bilərdi.

Beləliklə, romantizm də bir ədəbi cərəyan kimi cəmiyyətdə baş verən hadisələrlə əlaqədar olur və romantizmin özəlliklərini müəyyənləşdirərkən gerçəklikdə baş verən siyasi-ictimai hadisələr də mütləq nəzərə alınmalıdır. Bu isə o deməkdir ki, romantik ədəbiyyatı doğuran ictimai-siyasi və sosial hadisələri öyrənmədən, onu tam başa düşmək, özəlliklərini müəyyənləşdirmək mümkün deyil.

Amerika romantizminin yolu başqa ədəbiyyatlardakı romantizmin yolundan xeyli fərqli və ömrü isə daha uzunmüddətli oldu ki, bunun da öz tarixi və ictimai-siyasi səbəbləri vardı.

XVIII əsrin son rübündə (1775-1783) Böyük Britaniyanın Şimali Amerika ərazisindəki müstəmləkələrinin azadlıq mübarizəsi və müharibəsi nəticəsində yeni bir dövlət – Amerika Birləşmiş Ştatları meydana gəldi. Yeni yaranmış dövlətdə azadlıq hər kəsin qanuni hüququ elan edildi, bu məqam öz əksini qəbul olunmuş Konstitusiyada da tapdı, milli himndə səsləndi, amma tam azadlıqdan danışmaq hələ tez idi. Qanunvericilik söz, mətbuat, vicdan, toplantı və hərəkat azadlıqlarına təminat versə də, Cənub ştatlarında quldarların köləliyə malik olmaq hüququ qalmaqda davam edir, əhalinin bir qisminin – qadınların – hüquqları məhdud, digər qisminin - kölələrin isə ümumiyyətlə heç bir hüququ yox idi.

Mövcud vəziyyətdən narazı olub, onunla barışmayanlar birinci növbədə kölələrin özləri idi. Bu vəziyyət ağdərililərin də bir qismini qane etmirdi. Onlar Konstitusiya aktındakı azadlıqlar barədə müddəalarla quldarlığın bir araya sığmadığını dərk edir və bundan narazılıqlarını bildirirdilər. Bu narazılıq ən müxtəlif şəkildə təzahür edirdi. Bura bilavasitə kölələrin qaçıb şimal ştatlarında özlərinə yer tapmasına yardım etmək, kənd və şəhərləri gəzərək quldarlığa qarşı təbliğat aparmaq, sırf abolisionist mətbu orqanları yaratmaqla quldarlığın məhvinə çalışmaq və s. formada özünü göstərirdi.

İstiqlaliyyət müharibəsindən Vətəndaş müharibəsinə qədərki dövr Amerika Birləşmiş Ştatları tarixində bir çox xüsusiyyətlərinə görə fərqli və ölkə həyatının bütün sahələrində sürətli inkişaf dövrü idi. Bu dövr ABŞ ərazisi sürətlə genişlənir, Şimalla Cənub arasında ziddiyyət dərinləşir və kəskinləşir, yerini daim Qərbə doğru dəyişən frontir qalmaqda davam edir və onun qalması isə daim əhalinin bir qisminin miqrasiyada olmasını göstərir. Bunların hər biri öz növbəsində ölkə həyatının bu və ya digər cəhətlərinə ciddi təsir edirdi.

XIX əsrin ikinci rübündən başlayaraq quldarlıq məsələsi ABŞ-ın ölkədaxili siyasi həyatında əsas məsələyə çevrildi. Lakin bu məsələ bir anda meydana çıxmamışdı. Sadəcə olaraq, bu vaxta qədər müxtəlif güzəştlər vasitəsilə Cənubla Şimal arasında ziddiyyətlərin son həddə çatmasına imkan verilməmişdi. 1820-ci ildə qəbul olunan və "Missuri kompromisi" kimi məlum olan qanun 36-cı paraleldən cənubda quldarlığa icazə verir, şimalda isə qadağan edirdi. Lakin bu kompromis də problemi tamamilə həll edib gündəmdən çıxarda bilmədi. ABŞ-ın ərazisi hindu torpaqları və Meksika hesabına genişlənir və, təbii ki, quldarlar bu torpaqları da öz təsir dairələrinə qatmaq istəyirdilər.

Beləliklə, XIX əsrin əvvəllərindən 50-ci illərinə qədər Amerikanın ştatları təsərrüfatçılıq baxımından əsasən iki zidd istiqamətdə inkişaf

edirdilər və nəticədə artıq 50-ci illərdə Cənub bölgəsi faktik olaraq yalnız pambıq istehsalı ilə məşğul olan aqrar bölgəyə çevrilmişdi. Burada say etibarilə kölələr üstünlük təşkil edirdi. Lakin konqresdə Cənubu məhz ağlar təmsil edir, onların xeyrinə, yəni quldarlığın mövqelərinin güclənməsinə xidmət edən qanunların qəbul edilməsinə çox vaxt nail olurdular. Bundan başqa, artıq Şimalın iri sənayesinin bir qismi Cənubda istehsal olunan ucuz pambıqla işləyir, gəmiçilər xam və emal olunmuş pambıq daşınmasından külli gəlir əldə edirdilər və onlar pambıq sahəsində sabitlik istədiklərindən Cənubun mövqelərini dəstəkləyirdilər. Buna görədir ki, 50-ci illərin əvvəllərində quldarlar və onların tərəfdarları artıq qaçqın kölələrin harada olmasından asılı olmayaraq tutulub sahibinə qaytarılmasını nəzərdə tutan qanunu qəbul etdirə bildilər. Maraqlıdır ki, Amerika həyatında həlledici dönüş nöqtələrindən biri məhz həmin qanun oldu. Bir çoxlarının qeyd etdiyi kimi, məhz bu qanunun təsiri altında güclənən ictimai fikir və hərəkatlar son nəticədə Vətəndaş müharibəsi və quldarlığın ləğvi ilə nəticələndi. Bunun nəticəsində hələ əsrin əvvəllərində formalaşmış, 30-cu illərindən genişlənməyə başlayan abolisionist hərəkatı məhz 50-ci illərdə geniş vüsət tapdı. Bu hərəkatın əsas hərəkətverici qüvvəsi orta sinfin nümayəndələri – fermerlər, keşişlər, ziyalılar, fəhlələr və b. idi.

Beləliklə, 1860-cı ildə iki dünyagörüşü, iki təsərrüfat üsulu arasında ziddiyyət kulminasiya nöqtəsinə çatdı və gərginliyi yarımçıq tədbirlərlə aradan qaldırmaq mümkün olmadı. Və bunda bilavasitə şimallıların "günahı" yox idi, çünki gənc respublikaçılar partiyasından seçilmiş Linkoln və onun partiyası inqilabi tədbirlərin əleyhinə idilər. Onlar iki məsələdə ardıcıl və qətiyyətli idilər:

1. Quldarlıq Qərbdə yayılmamalıdır;
2. Ştatların ittifaqı saxlanılmalıdır.

Bu da tamamilə təbii idi, çünki respublikaçılar partiyası demokratların quldarların xeyrinə fəaliyyət göstərməsi şəraitində böyük və şanlı tarixə malik olub, yuxarıdan aşağıyadək heç kimi laqeyd qoymadan bütün Amerika cəmiyyətinə sirayət etmiş abolisionist hərəkatına səbəb yaratmışdı. Ölkədə bu və ya digər şəkildə abolisionizmə reaksiya verməyən adam tapmaq çox çətin idi. Bu hərəkatın nümayəndələri sırasında ən müxtəlif peşə sahibləri var idi.

Amerika romantizmi məhz belə ictimai-siyasi və tarixi dövrdə yaranmış, inkişaf etmişdi. Cəmiyyət həyatında sürətlə baş verən inkişaf meylləri, müstəqilliyin ilk illərində doğmuş ruh yüksəkliyi, sonra ölkənin inkişaf yolundakı iki bir-birinə zidd meyllər gözlənilən nəticələrin əldə olunmaması və bundan doğan narazılıq Amerika romantizminin özünəməxsus

inkişaf yolunu və rəngarəngliyini şərtləndirdi.

Azərbaycan ədəbiyyatında da romantizmin yarandığı və intensiv inkişafda olduğu dövr iki inqilab arasındakı müddətə təsadüf edir. Əlbəttə, bu, oxşar məqamlardan yalnız biri və, bəlkə də, romantizmin inkişafına rəvac verən əsas hadisələrdəndir. Bu ortaq məqamın olmasına baxmayaraq, Azərbaycan romantizminin inkişafı bir qədər fərqli tarixi şəraitdə baş vermişdi. Qeyd olunduğu kimi, bir ədəbi hadisə kimi Azərbaycan romantizminin yaranması Amerika romantizmindən təxminən yüz il sonraya, XX əsrin əvvəllərinə təsadüf edir.

XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi münasibətlər xeyli mürəkkəb idi: ölkə yüz ilə yaxın idi ki, müstəmləkə idi, kəndlərdə əsas etibarilə feodal münasibətləri hakim olmaqda davam edirdi, əyalət şəhərlərində ticarət və xırda kustar sənayesi və yalnız Bakıda sürətlə kapitalist sənayesi inkişaf edirdi. Azərbaycan Rusiya sənayesi üçün xammal mənbəyi olmaqda qalırdı. Yerlərdə faydalı qazıntıların olması və kənd təsərrüfatında müəyyən ixtisaslaşmalar oralarda da sənayenin müəyyən sahələrinin inkişafını şərtləndirirdi.

Çar hökumətinin Oktyabr bəyannaməsindən sonra xalqa müəyyən azadlıqların vəd edilməsi cəmiyyətdə böyük ümidlər doğurdu. Bu şəraitdə sürətlə inkişaf edən Azərbaycan mətbuatı və ədəbiyyatında müxtəlif səpkili ədəbi-bədii və fəlsəfi fikirlər təşəkkül tapmağa başladı. Azərbaycanda müxtəlif xarici və daxili təsirlərdən fərqli ictimai və fəlsəfi fikirlər yaranır və inkişaf tapırdı. Bu fikirlərin daşıyıcıları ən müxtəlif dəyərlərə əsaslanır və əsas etibarilə öz xalqının gələcək inkişaf yolunu tapmağa çalışırdılar. Liberal milli burjuaziya tərəfdarları da, marksizm ideyalarının daşıyıcıları da əslində eyni məramdan, xalqın sürətlə inkişaf edərək qabaqcıl dünya ölkələri sırasına qalxması məqsədi güdürdülər. Ali məram təxminən eyni olsa da, onlar arasında əsas fikir müxalifliyi xüsusi mülkiyyətə münasibət məsələsində idi.

Azərbaycan mütəfəkkirləri, qabaqcıl ziyalılarının Azərbaycanın gələcək yoluna fərqli baxışları öz əksini əsrin əvvəlinin ədəbiyyatında da tapmışdır. Maraqlıdır ki, həyat hadisələrinə yanaşmada fərqlərə baxmayaraq, o dövrdə ədəbiyyatımızda mövcud olan ədəbi cərəyanların mövzu dairəsi və əks etdirdikləri milli və bəşəri dəyərlər arasında elə güclü bir fərq görünmür.

Tədqiqatçının qeyd etdiyinə görə, "Azərbaycanda Maarifçilik kontekstində yaranan Romantizm fəlsəfəsi əvvəlcə dünyəvi Maarifçiliyə, onun işıqlı ideallarının reallaşmasına, sonra isə sosializmin "xoşbəxt cəmiyyətinə" inamı itirərək mistik maarifə, qnostik mərifətə üz tutur, mistik eşq

fəlsəfəsinə, İblisin insanda daimiliyi (Hüseyn Cavid) və "hər şeyin rəng olması" (Səməd Mənsur) qənaətinə gəlmişdi".[1] Bu fikir ikili yanaşma tələb edir və hər bir yönümün öz dövründə nəzərdən keçirilməsini, konkret tendensiyanı doğuran tarixi, ictimai-siyasi səbəbləri önə çəkməyi tələb edir. Yanaşmalardan birincisi Maarifçiliyin mövqelərinin zəifləməsi, Azərbaycan romantiklərinin Maarifçilik ideyalarından uzaqlaşması, ona "inamın itməsi"dir. Azərbaycan romantiklərinin bir qisminin praktik maarifləndirmə işi ilə məşğul olduğunu və əsərlərində maarifə çağırışların səslənməsini nəzərə alsaq, Azərbaycan romantizminin Maarifçiliyə əks olmasını qəbul etmək mümkün deyil. "Xoşbəxt gələcəyə inamın itirilməsi"nə gəldikdə isə, deməliyik ki, istənilən ədəbiyyatda romantizmin nikbin və bədbin qollarını fərqləndirmək mümkündür. Digər tərəfdən, romantizmin erkən mərhələsində nikbin mövqe üstünlük təşkil edir, bədbinlik motivləri daha yetkin mərhələdə, özü də yazarların bir qisminin yaradıcılığında yer alır. Azərbaycan ədəbiyyatına gəldikdə isə, onun formalaşması tarixin ağır mərhələsi – Birinci dünya müharibəsi, inqilabi çevrilişlər, Xalq Cümhuriyyətinin qurulması və süqutu dövrünə təsadüf etdiyindən onda bədbinliyin özünə yer alması təbii haldır. Sovetlər dövründə yaradıcılıq yolunu davam etdirmiş ədiblərin əsərlərində bədbinlik notlarının bariz təzahürü də qanunauyğundur. Digər tərəfdən, romantiklərin hər birinin öz parlaq fərdi üslubunun olması, öz poetikası və mövzu dairəsinin mövcudluğu və s. məsələlər onların hamısını eyni səpkidən nəzərdən keçirməyə imkan vermir. A.Səhhətin, A.Şaiqin nikbinliklə səslənən erkən şeirlərini, S.Mənsurun "Rəngidir" şeirindən cəmisi iyirmi ilə yaxın bir dövr ayırır. Lakin bu illərdə baş verən hadisələr (Birinci rus inqilabı, onun nailiyyətlərinin geri alındığı irtica illəri, Birinci dünya müharibəsi, çar hakimiyyətinin devrilməsi, Oktyabr inqilabı, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və süqutu, sovetləşmə və sovet repressiya maşınının tədricən işə düşməsi və s.) bütöv bir əsrə yerləşə bilərdi.

Fəslin *"Amerika romantizminin yolu"* adlanan ikinci yarımfəslində adı çəkilən ədəbiyyatda preromantizm və Amerika romantizminin mərhələləri (ayrı-ayrı paraqraflarda) araşdırılır. Romantizmin Amerika ədəbiyyatında yolu başqa ədəbiyyatlardakından xeyli fərqli və ömrü isə daha uzunmüddətli olmuşdur ki, bunun da öz tarixi-ictimai, siyasi səbəbləri var idi. İlk inamlı və dəyərli addımlarını XIX əsrin birinci rübündə K.Brayent, V.İrvinq və F.Kuper kimi yazarların yaradıcılığı ilə atan Amerika ədəbiyyatı özünün həyat qabiliyyətliyini və hər şeydən öncə özəlliyini göstərdi ki, bu

[1] Z.Quluzadə. Azərbaycan fəlsəfəsi // http: az.wikisource.org/wiki/Azerbaycan

da ilkin mərhələdə daha çox yerli materiala müraciətdə, Amerika xalqının özünəməxsusluğunu göstərməyə və onun metropoliya sakinlərindən əsaslı şəkildə fərqlənən mentalitetini əks etdirmək cəhdində təzahür etdi.

Məhz romantiklər Amerika ədəbiyyatı və bütövlükdə mədəniyyətində Amerika estetik fikrinin zəminini qoydular.

Amerika ədəbiyyatında romantizmin bir cərəyan kimi təşəkkül tapıb inkişaf etməsi ilk növbədə Yeni İngiltərə adlanan bölgə və həmin ərazidə yaranan bədii əsərlərlə bağlıdır.

Amerika romantiklərinin əksəriyyəti maarifçilərin demokratiya uğrunda mübarizəsini davam etdirirdilər, adi insanın ləyaqəti və şərəfi uğrunda – üçüncü silkin nümayəndələri uğrunda – mübarizədə fəallıq göstərirdilər və bunun da özü-özlüyündə böyük əhəmiyyəti var idi. Belə ki, romantiklərin müstəqilliyin təntənəli elanı zamanı irəli sürdükləri “yaşamaq hüququ, azadlıq və xoşbəxtliyə doğru addım” şüarı irqi və sosial vəziyyətindən asılı olmayaraq hamıya aid idi. Belə ideya yönümü Amerika romantizmini ilk addımlarından fərqli edirdi.

Amerika ədəbiyyatı Şimal ştatlarında yaransa da, xüsusilə də ilkin mərhələdə, əsas istiqamətləri və xüsusiyyətlərində vahid ədəbiyyat kimi inkişaf etmişdi. Hətta Cənubun ən böyük yazıçısı Simms yaradıcılığının birinci mərhələsində Yeni İngiltərə yazıçılarının fonunda bir o qədər seçilmirdi, Kennedi isə ümumiyyətlə Şimal ştatları ədəbiyyatının üzvi bir hissəsi kimi qavranılırdı. Lakin artıq 30-cu illərin ortalarından, yəni Amerika romantizminin ikinci – yetkinlik mərhələsinə qədəm qoyduğu vaxtdan başlayaraq vahid Amerika ədəbiyyatı Şimal və Cənub ədəbiyyatı olmaqla iki hissəyə ayrılmağa başlayır və onları fərqləndirən əsas xüsusiyyət kimi həmin dövrdə ölkənin ictimai-siyasi həyatının əsas ziddiyyəti olan köləlik probleminə münasibət ortaya çıxır.

Məhz bu dövrdə Amerika ədəbi prosesinə nəzəri baxış formalaşmağa başlayır və onun nəzəri zəmininin qoyulması üçün şərait yaranır. Bu, öz əksini transendentalistlərin estetik görüşlərində tapdı. Onların ədəbiyyata gəlişi ilə Amerika romantizmi yetkinlik mərhələsinə qədəm qoydu. Yetkin Amerika romantizm ədəbiyyatının ən görkəmli nümayəndələrindən R.Emerson, E.A.Po, H.Lonqfello, H.Toro və b. adlarını çəkmək olar. Bu dövrün sonuna yaxın isə ədəbiyyatda H.Biçer-Stou, U.Uitmen və b. öz sözlərini dedilər, əsərləri ilə özəl Amerika ədəbiyyatının mövcudluğunu təsdiqlədilər.

Vətəndaş müharibəsi ərəfəsində Amerika romantizmi öz inkişaf yolunda zirvə nöqtəsini keçir və müharibədən sonra mövqelərini tədricən tənqidi realizmə verməyə başlayır. Amma bir ədəbi cərəyanın ədəbi

arenadan getməsi, digərinin isə gəlməsi ani baş vermədiyindən, müəyyən müddət onlar yanaşı mövcud olurlar. Buna görə də Amerika romantizminin ədəbi arenadan getmə vaxtı barədə vahid və birmənalı fikir söyləmək mümkünsüzdür. Bunun başqa bir səbəbi də var ki, bu da Amerika ədəbiyyatında sırf Amerika hadisəsi olan frontir anlayışının olması və ölkənin müxtəlif bölgələrində ədəbiyyatın bir mədəni hadisə kimi müxtəlif dövrlərdə formalaşmasıdır.

Bundan başqa, qeyd etmək lazımdır ki, Amerika romantizminin nümayəndələri Vətəndaş müharibəsindən sonra da ədəbi arenadan getmədilər və onların öz oxucuları vardı.

Amerika romantizminin başlanğıcını XIX əsrin ilk onilliklərindən aldığı artıq qeyd olunsa da, bu ədəbiyyatın ilk addımlarından və ilk uğurlarından çıxış etsək, deməliyik ki, bu ədəbi cərəyanın ilk ünsürləri hələ İstiqlaliyyət müharibəsi ərəfəsində və onun gedişində preromantizm çərçivəsində müşahidə olunur.

Amerika ədəbiyyatının müstəqil özəl ədəbiyyat kimi formalaşmasının bilavasitə romantizmlə bağlı olduğunun sübuta yetirilməsinə ehtiyac yoxdur. Lakin nə Amerika romantizmi, nə də Amerika ədəbiyyatı boş yerdə yaranmamışlar. Onlar müəyyən tarixi şəraitdə ilkin formalaşma mərhələsini keçdikdən sonra özlərini təsdiqləyə bilmişdilər.

Amerika ədəbiyyatında preromantizmin olması göstərir ki, bu, ilk kövrək addımlarını atan ədəbiyyatda romantik tendensiya artıq XVIII əsrin 70-80-ci illərində təzahür etməyə başlayır. Bu da təsadüfi deyil. Romantizmin tarixin dönüş dövrlərində ön plana çıxması artıq söylənilmişdi. Və İstiqlal müharibəsi dövründə və ondan dərhal sonra Amerika ərazisində yaranan ən dəyərli bədii əsərlərdə romantik pafosun olması qanunauyğun hal kimi qavranıla bilər. Amma həmin dövrdə Amerika ədəbiyyatı hələ müstəqil ədəbiyyat kimi formalaşmadığından bu ədəbiyyatda romantizmin bir ədəbi cərəyan kimi məhz həmin illərdə yarandığını söyləmək düzgün olmazdı. Həmin dövr ədəbiyyatını bir sıra Avropa ədəbiyyatlarında olduğu kimi, preromantizm ədəbiyyatı kimi fərqləndirmək daha doğru olar.

Preromantizm dövrünün əsas xüsusiyyəti bundan ibarət idi ki, Amerika mədəniyyətinin ən mütərəqqi xadimləri dövlət müstəqilliyinin mədəniyyətlə də dəstəklənməli olduğunu dərk etməyə başlayırdılar. Bu mədəniyyətin yaranıb formalaşması prosesi isə xeyli vaxt tələb edir. Buna görə də özəl Amerika ədəbiyyatının və onunla birlikdə Amerika romantizminin nə vaxt yarandığını və onun əsası kim tərəfindən qoyulduğunu dəqiq göstərmək mümkün deyil.

ABŞ-da preromantizmin yaranması İstiqlaliyyət müharibəsindən

sonraya təsadüf edir və bu preromantizm Avropa preromantizmindən fərqlənir. Bunlar arasında ən böyük fərqli cəhət Avropa preromantizminin maarifçiliyə reaksiya kimi, Amerika preromantizminin isə maarifçilik ənənələrinin başqa vasitələrlə və yeni tarixi şəraitdə davamçısı kimi təzahür etmələrindədir. Preromantizm maarifçilik və sentimentalizmdən romantizmə keçid mərhələsində mövcud olub sonradan romantizmdə aparıcı yer alacaq tendensiyaları özündə əks etdirmiş, romantizm üçün lazımi zəmin yaratmış, lakin özünün estetik nəzəriyyəsi olmayan bir ədəbi cərəyandır. O, Amerika ədəbiyyatında Avropadakına nisbətən fərqli, yəni özəl Amerika ədəbiyyatının hələ tam təşəkkül tapmadığı şəraitdə formalaşdığından onun yerinə yetirdiyi missiya da fərqli olmuşdu. Amerika preromantizmi F.Freno və B.Braun kimi yazarların timsalında yalnız romantizmin yaranması üçün lazımi zəmin yaratmamış, həm də özəl Amerika ədəbiyyatının formalaşmasına rəvac vermişdi.

Filip Freno o dövrün Amerika ədəbiyyatının ən görkəmli nümayəndəsi olsa da, ədəbi aləmdə tək deyildi. Onun xidmətləri əsasən poeziya sahəsində təzahür etmişdi. Lakin həmin dövrdə Amerika nəsri də təşəkkül tapmağa başlamış və gələcəkdə Amerika nəsrində aparıcı olacaq bir sıra mövzular qismən də olsa həmin dövrün nəsrində öz əksini tapmışdı.

Amerika romantizminin inkişaf mərhələləri əsasən mövzu dairəsi, milli prioritetlər, janr-üslub məsələləri ilə əlaqəli izlənilir. Amerika ədəbiyyatının özünəməxsus xüsusiyyətlər kəsb etməsi, özünü müstəqil milli ədəbiyyat kimi təsdiq etməsi bütövlükdə romantizm dövrünə təsadüf edir. Əgər bu vaxta qədər Amerika ədəbiyyatı Avropada əsasən siyasi publisistikaya görə tanınırdısa, artıq XIX əsrin 20-ci illərindən başlayaraq onun özünəməxsus nəsri formalaşır, poeziyada öz sözünü deyə biləcək şairlər yetişir, yüksək bədii keyfiyyətlərə malik əsərlər yaranır. Bu bədii əsərləri yaradanlar içərisində ilk Amerika romantiklərindən Vaşinqton İrvinqin, Fenimor Kuperin və Kallen Brayantın adı çəkilməlidir. Məhz V.İrvinqin "Nyu-Yorkun tarixi" (1809), K.Brayantın "Tanatopsis"i (1815) və F.Kuperin "Casus"u (1821) özünəməxsus milli xüsusiyyətləri olan Amerika ədəbiyyatının yaranmağa başladığından xəbər verdilər.

Metropoliya ədəbiyyatının təsirindən tam azad ədəbiyyat kimi formalaşma prosesi Amerika ədəbiyyatında ölkə və xalqın taleyində ən önəmli iki tarixi hadisə arasında getmiş və İstiqlaliyyət müharibəsi dövründə başlayıb Vətəndaş müharibəsi illərində əsasən başa çatmışdı. Bu da romantizmin ilk cizgilərinin təzahüründən inkişafının zirvə nöqtəsinə qədər yüksələn xətt üzrə gedən yolu ilə üst-üstə düşür.

Amerika romantikləri üçün səciyyəvi xüsusiyyətlər milli özünəməx-

susluq ideyasının inkişaf etdirilməsi ilə bağlıdır. Qeyd olunan mövzular Amerika ədəbiyyatının ilk addımlarından müxtəlif səpkili və müxtəlif janrlarda yazılmış əsərlərdə işlənilmişdir. Buna görədir ki, romantizm dövrü Amerika ədəbiyyatından söhbət gedəndə, onun uğurları sırasında publisistik pafosun daha çox yer aldığı əsərləri də görmək olar. Bunlardan bir çox sosial-siyasi pamfletləri, Kuperin kəskin məqalələrini, R.U.Emersonun parlaq, bu gün də həyəcansız oxunmayan esseləri, Toronun düşüncələrimizi bu gün də heyrətə gətirən gündəlikləri, Ponun qeyri-adi və eyni zamanda dərin ilahi təsir qüvvəsinə malik şeirləri, G.Melvill və U.Uitmenin epistolyar irsi, abolisionistlərin nitq və moizələrini və bir sıra başqalarını göstərmək olar.

Amerika romantizminin də ideoloji əsası Avropada geniş yayılan idealist fəlsəfə ilə bağlı olmuşdur. Hələ üstəlik Amerikada bu fəlsəfi dünyagörüş daha geniş yayılmış və ilkin romantiklər məhz transendental qrup adlanan birliyə daxil olmuşlar (R.U.Emerson, Toro, Ripli) Amerika romantizminin Avropa romantizmi kimi əsas ideya istiqaməti mövcud ictimai mühitin inkarı, cəmiyyətin işıqlı gələcəyi, yeni dünya haqqında təxəyyüllərdən ibarət olmuşdur. Bütün bunlarla yanaşı, Amerika romantizmi müəyyən ərazidə yaranan və konkret tarixi, ictimai-siyasi hadisələri əks etdirən bir ədəbi prosesdir. Xüsusilə, G.Melvilin, U.Uitmenin yaradıcılığında bunu açıq-aydın görmək olar və hətta bəzi tədqiqatçılar G.Melvilin "Ağ sırıqlı" romanını, U.Uitmenin bir çox əsərlərini, Ceymsin isə bütün əsərlərini tənqidi realizmin ilk nümunələri olduğunu iddia edirlər.

Amerika romantizminə xas olan elə mövzular var ki, onlar Avropada yox idi. Hindu həyatı Amerika romantikləri üçün avropalıların Şərqini – yəni, ekzotik aləmi əvəz edirdi.

Azad dünya quran, müstəmləkəçilikdən xilas olan insanları xoşbəxt görmək – Amerika romantizminin əsas ideya istiqamətini təşkil edirdi.

Amerika romantizminin səciyyəvi xüsusiyyətlərindən biri onun maarifçiliklə sıx əlaqəsidir.

Amerika romantikləri material axtarışında birinci növbədə Amerika gerçəkliyinə müraciət etmiş, formalaşmaqda olan Amerika mentallığını əks etdirmişlər. XIX əsrin birinci yarısının Amerika yazarlarından H.Toro, N.Hotorn, V.İrvinq, F.Kuper, G.Melvill, H.Lonqfello və başqaları Amerika romantizminin inkişafında böyük rol oynamışlar. Artıq romantizmin özündə də tənqidi realizmin real kökləri meydana çıxırdı (bunu yerli koloritin timsalında görmək olar). F.Kuper, daha sonra N.Hotorn, G.Melvill və H.Toro öz yaradıcılıqlarında romantizmlə bərabər, realistik tendensiyalara da yer verirdilər. Hərçənd romantik kimi onlar daha maraqlı və bədii

cəhətdən daha məhsuldar idilər. Amerika romantiklərinin antiburjua fəaliyyəti müxtəlif sosial-tarixi şəraitlərdə müxtəlif cür meydana çıxırdı.

Amerika romantizmində hindu həyatı mövzusu daha çox reallıq idi və bu reallıq romantik ədəbiyyatın nəzəri prinsiplərinə daha çox cavab vermişdir. Avropa romantiklərinin ictimai-siyasi mübarizəsi ilə yanaşı, Amerika romantikləri Avropa romantizminin bədii-estetik prinsiplərini, qayda-qanunlarını nəzəri konsepsiyalarla əxz etmişlər. V.İrvinq və F.Kuper romantizm üçün xarakterik olan bədiiliyi zənginləşdirməklə, təsir dairələrini genişləndirirdilər.

Amerika romantikləri yeni yollar axtarır və son nəticədə aydın olurdu ki, bu yeni yollar nəinki Amerika ədəbiyyatında, hətta dünya ədəbiyyatında yenidir.

Romantiklərin etirazı estetik, mənəvi, bəzən isə sosial - siyasi xarakter daşıyır.

Amerika ədəbiyyatının özəl xüsusiyyətləri, onu başqa ədəbiyyatlardakı romantizmdən fərqləndirən və ilk nəzərdən də bariz görünən xüsusiyyətlər bu ədəbiyyatda abolisionizmin mövcud olması və Amerika ədəbiyyatının müxtəlif bölgələrdə həm zaman baxımından, həm də əsərlərin ideya yönümü baxımından fərqli inkişaf etməsindədir.

*"Azərbaycan romantizminin yolu"*na həsr olunan üçüncü yarımfəsildə qeyd olunur ki, Azərbaycan ədəbiyyatında romantizm cərəyanı ayrıca bir tarixi dövrdə milli ədəbiyyat daxilində aparıcı mövqe tuta bilməmiş, bununla belə özlüyündə kifayət qədər bariz təzahür etmiş, dəyərli ədəbi nümunələr vermiş, həm müasir ədəbiyyatımızın formalaşdığı dövrün, həm onu formalaşdıran tarixi şərait və ədəbi mühitin təsiri altında qısa bir müddətdə parlayaraq obyektiv və subyektiv amillərin təsiri altında bir ədəbi cərəyan kimi ədəbiyyatımızda mövcudluğunu dayandırmalı olmuşdur.

Başqa ölkələrdə romantizm və onu əvəzləmiş tənqidi realizm onilliklərlə hakim cərəyan olmuşlar. Azərbaycanda isə hər iki cərəyanın təxminən eyni dövrdə – XX əsrin ilk iki onilliyində – formalaşdığı və artıq sovet hakimiyyətinin ilk illərindən başlayaraq planlı şəkildə ədəbi arenadan sıxışdırıldığı nəzərə alınsa, razılaşmalıyıq ki, bu kimi olduqca mürəkkəb ədəbi proseslərin qısa bir tarixi dövrdə öz sözünü deyə bilməsi əslində unikal hadisədir. Nəzərə alsaq ki, bəzi tədqiqatçılar[1] tamamilə haqlı olaraq həmin dövrü ədəbiyyatımızda İntibah dövrü adlandırır, onda dövrün səciyyəsinin verilməsi və bu unikal irsin lazımınca və obyektiv dəyərləndiril-

[1] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı: Ziya-Nurlan, 2004, 387 s.

məsinin nə qədər çətin olduğu aydın olar.

Azərbaycan romantizminin səciyyələndirilməsində "mürtəce" və "mütərəqqi" kimi anlayışlardan istifadə olunurdu ki, məhz onlar sovet ədəbiyyatşünaslığında geniş işlənmiş və romantizmin müxtəlif qollarını fərqləndirmək üçün istifadə olunmuşlar. Bəzi Azərbaycan tədqiqatçılarının da bu məfhumlara müraciət etməsi, zənnimizcə, ümumiyyətlə, romantiklərimizin yaradıcılığını gündəmə gətirmək və heç olmasa faktoqrafiya baxımından geniş tədqiqə cəlb edə bilmək imkanı əldə etmək istəyindən irəli gəlirdi.

Azərbaycan romantizminin ən bariz təzahür etdiyi dövr XX əsrin ikinci və üçüncü onillikləridir. Əgər romantiklərimizin əksəriyyətinin ədəbiyyata gəlişi əsrin birinci onilliyinə, romantik kimi özlərinin ilk dəyərli sözlərini deməkləri isə 1905-1907-ci illər Birinci rus burjua inqilabı illərinə təsadüf edirsə, onların yaradıcılığının ən məhsuldar dövrü məhz əsrin ikinci onilliyinə düşür.

Hadisələrin sürətlə inkişafı nəticəsində Azərbaycan ədəbiyyatı və o cümlədən romantizmi qısa bir tarixi dövr ərzində böyük bir yol keçmişdir. 1905-1907-ci illərdə Ə.Hüseynzadə yaradıcılığında əsas nəzəri müddəaları və yaradıcılıq yönümü formalaşan romantizmin ədəbi-bədii praktikası da yaranmağa başlayır. Romantiklərimizin əksəriyyəti (A.Şaiq, A.Səhhət, M.Hadi, H.Cavid və b.) məhz həmin dövrdə ədəbiyyata gəlmiş, ilk əsərlərini mətbuatda çap etdirmişdir. İnqilabdan sonrakı irtica illəri ayrılıqda bir dövr təşkil edə bilər. Məsələ burasındadır ki, Azərbaycan ədəbiyyatında romantizm əsas etibarilə (xüsusilə də ilkin mərhələdə) poeziyada özünə yer almışdır. Poeziya isə gerçəklikdə baş verənlərə daha tez "hay" verə bilir. Buna görədir ki, əsərlərin çoxu konkret həyat hadisələrinin təəssüratı altında yaransa da, onlar gerçəklikdə baş verənlərin romantik vasitələrlə əks etdirilməsi ilə səciyyələnir.

Azərbaycan romantiklərinin yaradıcılığında müraciət olunan mövzuları ictimai-siyasi həyatın və təbiətin inikası olmaqla əsasən iki qrupa bölmək olar. Lakin bu bölgü də istənilən bütün bölgülər kimi şərtidir, çünki ictimai-siyasi mövzularda yazılmış əsərlərdə də təbiətin inikasına, təbiət mövzusunda yazılanlarda isə ictimai-siyasi motivlərə rast gəlinir. Bu baxımdan daha müfəssəl təsnifatlar da mövcuddur.[1]

Romantizm ədəbiyyatını müəyyən dövrlər hüdudlarında qruplaşdırmağa cəhd etsək, onun yalnız müəyyən illərdəki nailiyyətlərindən başqa, fərqləndirilən dövrlərin əsas xüsusiyyətlərindən və ədiblərin yaradıcılığının

---

[1] Bax: Vəli Osmanlı. Azərbaycan romantizmi: 2 cilddə. I c. Bakı: Elm, 2010, 464 s.

əsas qayələrindən danışmaq lazım gəlir. Amma qeyd etmək lazımdır ki, yazarlar arasındakı tipoloji oxşar cəhətlər ən ümumi şəkildə poetika və mövzu yönümündən fərqləndirilə bilər.

Azərbaycan romantizminin ikinci dövrü kimi Birinci dünya müharibəsi və Azərbaycan Demokratik Respublikası illərini fərqləndirmək olar. Məhz bu illərdə romantiklərimizin yaradıcılığı öz çiçəklənmə dövrünə qədəm qoyur, yalnız poeziyada deyil, həm də dramaturgiyada da dəyərli əsərlər yaradılır. Hüseyn Cavid və Cəfər Cabbarlının romantik faciələri, dramları, poeziyada müharibə mövzusuna müraciət, Məhəmməd Hadi poeziyasının timsalında vətənpərvərlik lirikasının xüsusi vüsət tapması və s. romantizm ədəbiyyatının yetkinlik dövrünü yaşadığına dəlalət edir.

20-ci illərdə artıq romantizmin ədəbi arenadan sıxışdırılması tendensiyası başlayır. Onilliyin birinci yarısında romantiklər bir sıra dəyərli əsərlər yaratsalar da, artıq romantizmin "aktuallığı" tədricən azalır. "Oqtay Eloğlu", "Od gəlini" kimi sırf romantik əsərlərindən sonra C.Cabbarlı realizm səpkisində işləməyə başlayır. Bu dövrdə və 30-cu illərdə romantizm cərəyanının əsas nümayəndəsi kimi Hüseyn Cavid qalmaqda davam edir. Bundan və gənc yazarların romantik kimi deyil, sosialist realizminin nümayəndələri kimi dəyərləndirilməsi cərəyanın 20-30-cu illərdə öz tənəzzül dövrünü yaşadığını göstərir.

*"Amerika və Azərbaycan romantizmlərinin tipologiyası"* başlıqlı *üçüncü fəsil*də qarşılaşdırılan romantizmlərin oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsinə cəhd edilir. Üç yarımfəsildə müvafiq olaraq Amerika romantizminin özəllikləri, Azərbaycan romantizminin özəllikləri, bu romantizmlərin tipoloji oxşarlıqları araşdırılır. Qeyd olunur ki, konkret tarixi dövrdə hansı ədəbi cərəyan və ya məktəbin aparıcı mövqedə olmasından asılı olmayaraq, onlarda mütləq həm romantik, həm də realist metodun ünsürləri yanaşı mövcud olur və bunlardan hansılarının üstünlük təşkil etməsi son nəticədə ədəbi cərəyanın və ya məktəbin özəlliklərini müəyyənləşdirir. Bundan başqa, nəzərə alınmalıdır ki, heç bir ədəbi cərəyan bütün ədəbiyyatlarda eyni zamanda və eyni səpkidə təzahür etmir. Bununla belə qeyd edilməlidir ki, romantizmin, bir ədəbi cərəyan kimi, konkret bir və ya bir neçə ədəbiyyatda yaranması, inkişafı və tənəzzülündən söhbət gedə bilər və bu zaman hər milli ədəbiyyatda onun özünəməxsus xüsusiyyətləri olur.

Romantizmin XVIII əsrin lap sonunda yaranıb, XIX əsrin 30-40-cı illərində mövqelərini əldən verməsi fikri yalnız Avropa ədəbiyyatlarının bir qisminə şamil edilə bilər. Amma Amerika ədəbiyyatında romantizm ədəbi cərəyanı XIX əsrin ikinci onilliyində yaranmış və Vətəndaş müharibəsinə

qədər hakim cərəyan olmuşdur. Şərq ədəbiyyatlarında, o cümlədən Azərbaycan ədəbiyyatında isə, həmin cərəyan XX əsrin əvvəllərində özünü bariz göstərir. Şərq ədəbiyyatlarında romantizmin tədqiqatçılarının bir qisminin XX əsr romantizmini "qayıtmış" adlandırmasını və dövrümüzdə romantizmin bir sıra ədəbiyyatlarda qayıdışından söhbət getdiyini nəzərə alsaq, deməliyik ki, romantizm cərəyanının bütövlükdə dünya ədəbiyyatında konkret mövcudluq dövrünü göstərmək mümkün deyil.

Amerika romantizminin özünəməxsus xüsusiyyətlərindən danışanda bir qayda olaraq onun 1) maarifçilik ənənələrinin davamçısı kimi çıxış etməsi, 2) Avropa romantizmindən fərqli olaraq bir qədər başqa sosial bazası, 3) şəxsiyyətlə cəmiyyət probleminə xüsusi diqqət yetirməsi və 4) onu əvəzləyən realizmlə daha sıx əlaqəsi ön plana çəkilir.

1. Romantizmin maarifçiliyə qarşıdurmada olmaması yalnız Amerika ədəbiyyatına deyil, yeni yaranan və ya "yenidən yaranan" bir sıra başqa ölkələrin ədəbiyyatına da xasdır. Bu qəbildən olan ölkələrə XX əsrin əvvəllərində bir sıra Şərq ölkələrini, ikinci yarısında isə müstəqillik qazanmış bir sıra Afrika ölkələrini aid etmək olar.

2. Amerika romantizminin sosial bazasının, daha doğrusu, yaranıb inkişaf etdiyi ictimai-siyasi və sosial mühitin bənzərsizliyi onun ən bariz xüsusiyyətlərindən birini - eyni zamanda bir neçə istiqamətdə inkişaf etməsini, müxtəlif ictimai-siyasi dəyərləri müdafiə etməsini və vahid nəzəri fikir ətrafında birləşməməsini şərtləndirmişdir.

3. Şəxsiyyətlə cəmiyyət probleminə xüsusi diqqət əslində romantizm cərəyanının bütün milli "növlərində" özünə yer alır, çünki həyatdan narazılıq, "küskünlük", gerçəklikdən qaçma bütövlükdə romantizmin əsas xüsusiyyətlərindən biridir. Amerika romantik ədəbiyyatında bu əlamət xeyli dərəcədə fərqli əks olunur ki, bu da əsas etibarilə Amerika gerçəkliyi, ölkənin inkişaf yolunun özünəməxsusluğu ilə şərtlənir.

4. Amerika romantikləri Avropa romantiklərindən fərqli olaraq gerçəkliklə daha sıx bağlı idilər və bunun nəticəsində romantizm ünsürləri onların əsərlərində əsasən pafos və bədii ümumiləşdirmə səviyyəsində təzahür edirdi ki, burada gerçəklikdən qaçma və küskünlük və nəticə kimi, hər halda Amerika romantizminin ilkin mərhələsində, bədbinlik, demək olar ki, yox idi. Bundan başqa, gerçəkliklə sıx bağlılıq sırf Amerika hadisəsi olan yerli koloritin təzahür etməsinə rəvac vermişdir. Məhz bu əlamət sonralar Amerika realizminin zəmini kimi qavranılmağa başladı, tədqiqatçılara isə bəzi romantikləri realist adlandırmağa əsas verdi. Amerika romantiklərinin yaradıcılığının tədqiqi göstərir ki, onların heç biri tərki-dünya olmamış, əksinə, hamısı öz zəmanəsinin maraqlarına uyğun

yaşamışlar və Amerikanın özəl ədəbiyyatının yaradılması işinə öz töhfələrini vermişlər.

Amerika romantizminin regional özəllikləri üç müvafiq paraqraflarda açıqlanır: abolisionist ədəbiyyatı, Cənub romantizmi, Qərb romantizmi.

Amerika romantizminin özünəməxsus xüsusiyyətlərindən biri yalnız Amerika ədəbiyyatında bariz təzahür etmiş abolisionizmdir. Bu, bilavasitə Amerika gerçəkliyi ilə sıx bağlıdır. Abolisionizmin bir ictimai hərəkat kimi kökləri İstiqlal müharibəsi və bilavasitə ondan sonrakı illərdən başlanğıc alır. Ölkə istiqlaliyyatı qazandıqdan və müstəqilliyini bəyan etdikdən sonra quldarlıq ləğv edilmədi.

Abolisionist ədəbiyyatının yaranması və inkişafı Amerika ədəbiyyatında romantizm estetikasının hökmranlığı dövrünə təsadüf edir.

Birinci nəsil abolisionist ədiblər daha çox publisistik janrlara müraciət edirdilər. Onların qarşısında əsasən praktik məsələlər durduğundan, onlar öz ideyalarını publisistika vasitəsi ilə həyata keçirirdilər. 40-cı illərdə abolisionist mövzular bədii ədəbiyyata get-gedə daha çox yol tapırdı. 50-ci illərdə isə abolisionist ədəbiyyatı özünün ən yüksək inkişaf nöqtəsinə çatdı.

İlk və ən ardıcıl abolisionist şairlərdən biri Con Qrinlif Uityerdir. Amerika yazıçılarının əksəri üçün köləlik mövzusu xarakterik mövzulardan biridir. Məsələn, G.R.Louell, R.U.Emerson, H.Lonqfello və başqaları bu mövzuya qismən də olsa müraciət edirdilər. Onlar nəinki qatı, heç ardıcıl abolisionist də deyildilər. Onlar hər şeydən əvvəl sözün həqiqi mənasında demokrat, namuslu adam, humanist idilər. 40-cı illərin əvvəllərində Henri Lonqfello "Kölələik nəğmələri" silsilə şeirlərini yazmışdır. "Kölələik nəğmələri" silsiləsinə cəmi səkkiz şeir daxil idi. Həmin şeirlər 1842-ci ildə şair Avropadan qayıdan kimi ayrıca kitabça şəklində çap olunmuşdu. U.Uitmenin ilk poetik təcrübələri 30-cu illərin sonuna təsadüf etsə də, sonralar ona dünya şöhrəti gətirmiş U.Uitmen poeziyasının cizgiləri yalnız həmin 1850-ci ildə çap olunmuş dörd şeirdə bariz şəkildə təzahür edir.

Abolisionist ədəbiyyatının zirvə nöqtəsi isə Harriyet Biçer-Stounun 50-ci illər yaradıcılığıdır. Onun "Tom dayının daxması" ("Uncle Tom's Cabin") romanı köləliyə vurulan ən güclü zərbəsi oldu. Yazıçının bu romanı XIX əsrin ortaları dünya ədəbiyyatı üçün görünməmiş bir hadisə oldu.

Cənubluların həyat tərzini və quldarlığın məziyyətlərini vəsf edən ədəbiyyat Harriet Biçer-Stounun romanından və ona cavab olaraq yazılmış əsərlərdən xeyli əvvəl yaranmışdı.

Şimaldan fərqli olaraq Cənubda müəyyən ədəbi mühitdən və ya məktəbdən danışmaq olduqca çətindir. Bunun əsas səbəbi bölgədə qapalı

plantator təsərrüfatının üstünlük təşkil etməsi, iri şəhərlərin azlığı, hətta ağlar arasında savad səviyyəsinin çox aşağı olması və s. idi.

Cənub romantizminin ilk nümayəndələri Edvard Kut Pink, Riçard Henri Uayld, Tomas Holli Çiversdir. Edqar Allan Po mənşəcə Cənublu olsa da, onun yaradıcılığı bu ədəbiyyat çərçivəsinə sığmır, bu səpkidən nəzərdən keçirilə bilməz. Özünəməxsus romantik şair kimi Çivers peyzaj lirikası yaratmış, Cənubun təbiətini konkret poetik lövhələrdə əks etdirmişdi.

50-ci illərin əvvəllərində abolisionist hərəkatının güclənməsi və bunun ən böyük nailiyyəti kimi Harriyet Biçer-Stounun "Tom dayının daxması" romanının çapdan çıxmasına cavab olaraq cənublu yazarlar də öz sözlərini dedilər. Qısa müddətdə onlarla iri və kiçik həcmli əsərlər yaradıldı. Bunlardan biri də Uilyam Qreysonun "Muzdlu fəhlə və kölə" poemasıdır.

Cənub poeziyası bütövlükdə həvəskar səviyyədən yuxarı qalxmamış, böyük nailiyyətlər əldə etməmiş. Hərdən şeirlərin melodikliyi və axarlığı ilə fərqlənsə də, məzmun dərinliyi forma kamilliyinə müvafiq olmamış. Cənub poeziyasının bütün dünyada tanınan nümayəndəsi E.A.Podur ki, o da sağlığında Amerikanın özündə kifayət qədər tanınmamış, Amerika ədəbiyyatından çox Avropa ədəbiyyatına təsir etmişdir.

Amerika romantizminin əsas nailiyyətlərindən biri tarixilikdir. Cənubda bu tarixiliyə münasibət romantiklərin ölkənin keçmişini necə və hansı mövqedən əks etdirmələrində özünü bariz şəkildə göstərir. Bu xüsusda Cənub ştatları ədəbiyyatı və birinci növbədə romanı iki istiqamətdə inkişaf edir.

1816-cı ildə Baltimorda çıxan "Portik" jurnalında Con Kennedinin "İsveçrəli səyyah" ümumi başlıqlı beş essesi çap olunmuşdu. Kennedi romantikanı və romantik qəhrəmanını uzaq ölkələrdə deyil, "öz evinin içində", Amerikada axtarır. Amerikanın Cənubunda xarakterlər, hər yerdə olduğu kimi, yaşayış tərzinin təsiri altında formalaşır. Böyük şəhərlərin olmaması, plantasiyaların nisbətən təcrid olunmuş şəkildə mövcudluğu buradakı insanların xarakterlərində fərdi xüsusiyyətlərin bariz şəkildə inkişafına rəvac verir.

Cənub romantizminin ən görkəmli nümayəndəsi Uilyam Gilmor Simmsdir. Onu ədəbi aləmə tanıdan ilk böyük əsərləri 1832-ci ildə yazdığı mifoloji süjetli "Atlantida" ("Atlantis") poeması və "Martin Feyber"(1833) romanı olmuşdur. Simmsin romanları bütövlükdə İstiqlaliyyət müharibəsinin Cənubda gedişi barədə kifayət qədər dolğun təsəvvür yaradır və bu təsəvvür əksər hallarda tarixçilərin qənaətlərindən fərqlənmir. Bu mövzuda yazdığı ilk əsərində - "Partizan"da - Simms Vətəndaş müharibəsinin

Cənubda olduqca qəddar getdiyini göstərir. Simms tarixi romantik kimi olsa da, obyektiv əks etdirməyə çalışır. İstedad səviyyəsinə və sənətkarlıq xüsusiyyətlərinə görə Simms XIX əsrin birinci yarısı Amerika ədəbiyyatında müstəsna yer tutur. Onu hətta o dövrün ən məşhur nasiri, Amerika nəsrini dünyaya tanıdan Fenimor Kuperlə müqayisə etmək çətindir, çünki bu müqayisə sonuncunun xeyrinə olmur. Əgər F.Kuper romanları təqib etmə sxemi üzərində qurulmaqla oxucunun diqqətini daim gərginlikdə saxlayır, lakin qəhrəmanları bir qayda olaraq xarakterlərinin mürəkkəbliyi ilə seçilmirlərsə, Simmsin romanlarının süjeti dövrünü xeyli qabaqlayaraq realizmin çiçəklənmə dövründəki kimi süjetin çoxşaxəliliyi, çoxsaylı qəhrəmanları isə xarakterlərinin müxtəlifliyi ilə fərqlənirlər. Simmsin yaradıcılığının əsasən romantizm xarakterli olmasına baxmayaraq poetikasında, kiçicik detalların təsvirində belə həyat həqiqətlərinə sadiqliyi onun realizmə meylli olmasından xəbər verir və yazıçının nə üçün dövrün ədəbi həyatında layiq olduğu yeri tuta bilməməsinin səbəblərini qismən də olsa anlamağa imkan verir.

Simmsdən fərqli olaraq Con İsten Kuk (1830-1886) yaradıcılığa Amerika romantizminin yetkinlik dövründə başlamış və hər hansı bir zümrənin maraqlarını güdmək, onları müdafiə etmək fikrindən uzaq olmuşdur. Onun çoxsaylı romanları doğma ştatının keçmişinə həsr olunub.

ABŞ-ın özəlliyi ilə seçilən bölgələrindən biri də Qərbdir. Bu bölgənin məskunlaşdırılması əsasən XIX əsrə təsadüf etdiyindən bədii söz yaradıcılığının özü də bu bölgədə nisbətən gec təşəkkül tapır. Qərb ştatları ədəbiyyatı digər bölgələrin də keçdiyi mərhələləri yaşadığından, məlum ədəbi cərəyanların yaranması və özünü kifayət qədər dolğun göstərməsi də bu bölgədə nisbətən gec başlayır. Uzaq Qərbin (və ya Vəhşi Qərbin) ədəbiyyatı müəyyən boşluqda yaranmamışdı. Lakin bu ədəbiyyatı formalaşdıran tarixi şərait Şimal və Cənubun ədəbiyyatını şərtləndirən mühitdən fərqlidir. Bu da son nəticədə Uzaq Qərb ədəbiyyatının sırf Amerika zəminində formalaşmasına rəvac vermişdi.

Amerika ədəbiyyatında Uzaq Qərb anlayışının özü nisbidir. Qərb bölgələri mərhələ-mərhələ məskunlaşdırıldığından burada bütövlükdə mədəni həyatın canlanması da mərhələ-mərhələ baş verir, əsrin əvvəllərində Frontir (sərhəd) adlandırılan bölgələrlə əsrin ikinci yarısında həmin məfhumla adlandırılan bölgələr üst-üstə düşmür. Mərkəzi və Qərbi Amerika əraziləri mərhələ-mərhələ məskunlaşdığından onlarda yaranan ədəbiyyat da eyni tədricən Qərbə doğru irəliləyir və özünün nailiyyətləri ilə ümum Amerika ədəbiyyatına yalnız XX əsrdə daxil olur.

Qərbin məskunlaşdırılmasının son mərhələsi Amerika ədəbiyyatında

realizmin formalaşması ilə bir vaxta təsadüf edir. Bret Qart, H.Harlend, Hakin Miller kimi "yerli kolorit" yazıçıları Qərbin təkrarolunmaz sosial tiplərini, situasiyalarını əks etdirirlər. Bu mənada onları Uzaq Qərb ədəbiyyatının sələfləri hesab etmək olar.

Qərb bölgəsinin doğurduğu ədəbiyyat həm realist, həm də romantik formada təzahür etsə də, müəyyən səbəblərdən romantik meyl üstünlük təşkil edir. Vəhşi Qərb adlanan ərazi ABŞ ərazisinin təxminən üçdə ikisini təşkil etdiyi və bu ərazilərin tədricən məskunlaşdırıldığı və bura köç edənlərin milli mənsubiyyəti, dünyagörüşü, mədəni səviyyəsinin olduqca müxtəlif olması nəzərə alınsa, Qərb ədəbiyyatının özünəməxsus ədəbiyyat kimi formalaşmasının müəyyən mərhələlərlə getməsi qanunauyğun sayılmalıdır. Kaliforniya, Oklaxoma, Nyu-Mexiko, Arizona kimi bölgələrdə yaranan sənət əsərləri yerli koloriti ilə seçilir, özündə təzadlı təbiətin də təsirini əks etdirir. Lakin bu əksetdirmə hətta XX əsrin 20-30-cu illər ədəbiyyatında da realistlikdən xeyli uzaqdır. Bunu Cənub-Qərb ədəbiyyatının o dövr üçün ən məşhur nümayəndəsi La Ferjin əsərlərinin timsalında görmək mümkündür. Onun Amerika klassikası hesab olunan "Gülən Oğlan" (1929) əsərində romantik meyl üstünlük təşkil edir. Yazıçı ilk dəfə olaraq navaxo hindularının həyatını daxildən əks etdirir, əsərin romantik məhəbbət tematikası ciddi sosial-mənəvi problemə toxunur. Hindu Gülən Oğlan və onun sevgilisi ağbəniz qızın xoşbəxtliyi mümkün deyil, çünki bu məhəbbət ağbənizlilərin və hinduların mədəni dəyərlərinə əsaslana bilmir. Müəllif hindu və ağbənizlilər dünyasının mənəvi dəyələrini birləşdirməyə çalışır. Bu isə mövcud tarixi, ictimai şəraitdə cəlbedici olduğu qədər də utopik bir məqsəd idi.

Romantik və realist tendensiyaların Amerika ədəbiyyatında özünəməxsus şəkildə qovuşması yeni janrın – vesternin yaranmasına təkan verdi. Məhz bu janr milli Amerika janrı kimi özünə yer aldı və başqa bölgələr və ölkələrdə çoxsaylı bu səpkili əsərlərin yaranmasına rəvac verdi. Bu janrın artıq yüz ilə yaxın bir dövrdə öz yerini saxlaması, oxucular tərəfindən bu gün də maraqla qarşılanması onun onda Amerika xarakterinin və həyat tərzinin, bəzi sabit milli ideallarınvə illüziyaların əks olunmasından irəli gəlir.

Fəslin ikinci yarımfəslində *"Azərbaycan romantizminin milli özəllikləri"* tədqiq edilir. Azərbaycan romantizmi özünəməxsus xüsusiyyətlərə malikdir. Əgər bütövlükdə romantizm cərəyanına xas xüsusiyyətlərin bariz görünməsi onu bütövlükdə həmin cərəyan çərçivəsində nəzərdən keçirməyə imkan verirsə, ədəbiyyatımızdakı romantizmə aid edilən əsərlərin özəllikləri məhz Azərbaycan romantizmindən danışmağa əsas verir.

Həcm və “mövcudluq müddəti” baxımından Azərbaycan romantizminin özünəməxsusluğu onun yazarlarının bədii yaradıcılıqlarının özəllikləri ilə bilavasitə şərtlənir. Hər yazarın öz yolu, yaradıcılığının orijinal olduğundan və onların hər birinin ətrafında müəyyən qədər səviyyəcə onlara yaxınlaşan yazarların azlığı və ya olmaması milli romantizmdə əsas tendensiyaların bir və ya iki müəllifin yaradıcılığında bariz təzahür etməsi fikrini söyləməyə əsas verir.

Azərbaycan romantizmini Avropa və Amerika romantizmindən fərqləndirən məqamlar həm bu cərəyana aid edilən əsərlərin mövzuları, mövzuların işlənilmə səpkisi və bütövlükdə tarixi səbəblər üzündən onun tarixi baxımdan dar bir zaman çərçivəsinə mövcudluğudur. Azərbaycan romantizminin inkişafı sanki məhvərindən çıxaraq bir neçə qat sürətləndirilmiş zaman çərçivəsində getdiyindən, başqa ədəbiyyatlarda və birinci növbədə paralellər apardığımız Amerika ədəbiyyatında onilliklərə yerləşən proseslər burada bir neçə ilə sığışır, Qərbdə bir-birini əvəzləyən tendensiyalar burada bəzən paralel təzahür edir.

Bütövlükdə Azərbaycan romantizm ədəbiyyatının dövrləşdirilməsində biz, əlbəttə, onun əsas tipoloji xüsusiyyətlərindən çıxış etmişdik. Bu xüsusiyyətləri isə mövzu seçimində və onun işlənilmə yönümü və vasitələrində axtarmaq lazım gəlir.

Azərbaycan romantiklərinin erkən mərhələ yaradıcılıqlarında müraciət etdikləri əsas mövzuları ən ümumi şəkildə bu kimi qruplaşdırmaq olar: ictimai-siyasi, təbiət, maarif. Azərbaycan romantik poeziyasında, azsaylı uşaq şeirlərini çıxmaq şərtilə, sırf peyzaj lirikası yoxdur desək yanılmarıq. İstənilən təbiət təsviri arxasında şairlərimizin əsərlərində insan və onun taleyi durur, müəlliflər yalnız təbiətin təsvirini vermir, həm də onlardan dərin fəlsəfi məna çıxartmağa, onlara fəlsəfi yozum verməyə çalışırlar.

İlk addımlarından Azərbaycan romantiklərinin yaradıcılığında maarifçilik problemləri ön plana keçir və bu problem bilavasitə Vətən, Vətənə məhəbbət, Vətənin azadlığı mövzuları ilə sıx vəhdətdə səsləndirilir. Bu mövzular əsas etibarilə poetik əsərlərdə, mənzumələrdə işlənilmişdi.

Vətən, Vətən dərdi, Vətənin azadlığı və bu azadlığa atəşin çağırış ən bariz təzahürünü romantiklərimizdən Məhəmməd Hadi yaradıcılığında tapmışdır. Şairin amalı Vətən və hürriyyətdir ki, onun yaradıcılığından qırmızı xətlə keçir. Ümumiyyətlə, M.Hadi yaradıcılığının əsas qayəsini Vətən və Hürriyyət mövzuları təşkil edir.

Azadlıq mövzusu C.Cabbarlı yaradıcılığında da öz əksini tapır. “Trablis müharibəsi”, “Ədirnə fəthi” kimi əsərlərində azadlıq problemini dramaturq müharibə mövzusu əsasında qoyur və ön plana burada milli

azadlıq məsələsi çıxır. Sovetlər dönəmində totalitar rejimin formalaşmağa başladığı bir dövrdə o, “Od gəlini” faciəsini yaradaraq insan azadlığı, vicdan azadlığı problemini çox böyük yüksəkliklərə qaldırır və sanki insan düşüncəsini qəlibləməyə başlayan quruluşun təzyiqinə duruş gətirməyə çağırır.

Azərbaycan romantizminin ən bariz özəlliklərindən biri romantiklərimizin sosial mövzulara müraciəti, məzlumların taleyini poetik dillə qabardaraq nəzərə çatdırması, dramaturji əsərlərdə isə real gerçəklikdəki sosial problemləri bariz göstərməsidir.

Azərbaycan romantizminin qoyulan problemlər baxımından bəşəri, mövzu seçimi baxımından bariz milli özəlliyi ilə fərqlənən nümayəndəsi Hüseyn Caviddir. Yaradıcılıq yoluna kiçik həcmli şeirlərlə başlayan Hüseyn Cavid XX əsrin ikinci onilliyində dramaturji yaradıcılığa önəm verməyə başladı və Azərbaycan romantizminin aparıcı və ən ardıcıl simasına çevrildi, xüsusilə romantik faciə janrının inkişafına əvəzsiz töhfələr verdi.

Azərbaycan romantizmini Qərb ədəbiyyatlarındakı romantizmdən fərqləndirən əsas xüsusiyyətlərdən biri onun “qayıdan” romantizm olması (yəni “ideallaşdırma” prinsipindən çıxış etsək, yeni dövrdə orta əsrlər Şərq romantizminə qayıdış nəzərdə tutulur) və romantizmin inkişafında, romantik pafosun Qərb ədəbiyyatlarında olduğu kimi, yalnız nikbinlikdən bədbinliyə, yetkinlikdən sonra tənəzzülə doğru inkişafı deyil, həm də, qısa bir müddətə də olsa, yenidən romantik nikbinliyə qayıdışdır. Bunu XX əsrin 20-ci illərində ədəbiyyata gəlmiş bir sıra Azərbaycan şairlərinin yaradıcılığı timsalında bariz görmək olar. Şair kimi formalaşmaları sovet quruluşunun təşəkkül dövrünə təsadüf edən bu ədiblər, yeni dövrün bəyan etdiyi amalları tam həqiqət kimi qəbul etdiklərindən, romantik vüsətlə dövrü vəsf etməyə başlamışdılar. Bu, sovet ədəbiyyatşünaslığında deyildiyi kimi, sosializm realizmi daxilində romantik pafos deyildi, əslində romantizmin “ikinci” qayıdışı idi. M.Müşfiq və S.Vurğunun erkən yaradıcılığında bariz təzahür edən bu romantik vüsət həm həyat hadisələrinə yanaşma baxımından, həm də romantizmin poetikası baxımından nəzərdən keçirilə bilər.

Fəslin üçüncü yarımfəslində *“Amerika və Azərbaycan romantizmlərində tipoloji oxşar xüsusiyyətlər”* müqayisəli planda aşkarlanır. Romantizmin tipologiyasından danışmaq müxtəlif ədəbiyyatlarda eyni ədəbi cərəyana aid edilən ədəbi hadisələrin qarşılaşdırılaraq oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsidir. Ayrılıqda götürülmüş iki ədəbiyyat arasında tipologiyanın aparılması bütövlükdə romantizm cərəyanına xas

olub, bütün milli ədəbiyyatlarda cərəyanın həm fərqləndirici əlamətlərini, həm də həmin iki ədəbiyyat üçün səciyyəvi olan xüsusiyyətlərin müəyyənləşdirilməsini tələb edir.

Hakim cərəyan olmaq və mövqelərini saxlamaq baxımından Amerika və Azərbaycan romantizmləri arasında tipoloji oxşar cəhətlər, birinci növbədə, romantizm ədəbiyyatının tarixi missiyası və ədəbiyyata bütövlükdə gətirdiyi yeniliklərlə bağlıdır. Müstəmləkə asılılığından azad olub, özünü bir müstəqil millət kimi dərk etmək və tarixin səhnəsində bədii sözün gücü ilə təsdiqləmək baxımından yanaşıldıqda, bu oxşar məqamları açıqlamaq mümkündür.

Amerika ədəbiyyatının ayrıca milli ədəbiyyat kimi yaranması ABŞ dövləti formalaşan kimi baş verməmişdi. Metropoliya ədəbiyyatının təsirindən tam azad ədəbiyyat kimi formalaşma prosesi Amerika ədəbiyyatında ölkə və xalqın tarixində iki taleyüklü hadisə arasında getmiş və İstiqlaliyyət müharibəsi dövründə başlayıb, Vətəndaş müharibəsi illərində əsasən başa çatmışdı. Bu da romantizmin ilk cizgilərinin təzahüründən inkişafının zirvə nöqtəsinə qədər yüksələn xətt üzrə gedən yolu ilə üst-üstə düşür.

Azərbaycan romantizmi də maarifçiliyə qarşı duran cərəyan kimi təzahür etməyib, bilavasitə maarifçilik ideyalarının davamçısı və daşıyıcısı kimi çıxış edirdi. Həmin cərəyanın çiçəklənməsi və ya qayıdışı, maarifçilik hərəkatının gücləndiyi dövrə təsadüf edir və Azərbaycan yazarlarının da əsərlərində biz bilavasitə maarifçiliyə və maariflənməyə çağırışı görürük. Həm Amerika, həm də Azərbaycan romantikləri arasında bilavasitə praktik maarifləndirmə işi ilə məşğul olanlar az olmamışdır. Onlar həm mətbu orqanlarında fəal işləri, həm yaratdıqları əsərlər, həm də pedaqoji fəaliyyətləri ilə maarifləndirmə işinə xidmət etmişlər.

Bu baxımdan Amerika və Azərbaycan romantizmlərini müqayisə etdikdə romantiklərin maarifçilik ideyalarını davam etdirməkdə, yaymaqda güddükləri məqsəd nəzərə alınmalıdır.

Bu məqsədləri aydınlaşdırmağa cəhd etdikdə onlar arasında müəyyən səsləşmə ilə üzləşirik və bu səsləşmənin milli istiqlala aparan yolda ən ümdə məsələlərdən olan milli özünüdərkdir.

Amerika romantikləri birinci növbədə milli müstəqilliyi yalnız hüquqi baxımdan deyil, həm də mənəvi baxımdan formalaşdırmaq, milli özünüdərk və özünütəsdiqə xidmət baxımından dəstəkləyir və bu yönümdə bacardıqlarını edirdilər. Bu yol isə ədəbiyyatda ingilis ədəbi ənənələrindən mümkün qədər uzaqlaşaraq özəl Amerika ədəbiyyatının poetikasını formalaşdırmaqdan keçirdi. Azərbaycan ədəbiyyatında bu problem yox idi. Azərbaycan romantikləri (və eləcə də realistləri) milli müstəqilliyə aparan

yolu maarifləndirmədə, dünyəvi elmin yayılması və xalqın dünyanın qabaqcıl xalqları səviyyəsinə yüksəlməsində görürdülər. Poetika baxımından yeniliklər olsa da, onun kökündən dəyişilməsi problemi durmurdu. Amerika romantizmi İstiqlal müharibəsindən sonra formalaşıb inkişaf etsə də, Azərbaycan romantizmi Birinci rus burjua-demokratik inqilabından sonra formalaşmış, romantiklərimiz əsərlərində məhz milli özünüdərk ideyalarını səsləndirmişlər.

Rusiyanın müstəmləkələri olmuş ərazilərdə (Azərbaycan, Orta Asiya və s.) romantizm 1905-ci il inqilabından sonra yaranır və qısa müddətdə yüksək bədii dəyərə malik əsərlər meydana gəlir ki, buna da səbəb tarixin kəskin dəyişən məqamında milli özünüdərk hissinin oyanmasıdır.

Amerika romantikləri özəl Amerika ədəbiyyatının yaradıcıları idi, amma Azərbaycan romantikləri həmin missiyanı öz öhdələrinə götürə bilməzdilər, çünki Amerika romantizmi ölkənin və xalqın özü ilə paralel formalaşdığı və özünü təsdiqlədiyi halda, Azərbaycan romantizmi az qala minillik ənənələri olan bir ədəbiyyatda, özü də neçə yüz il əvvəl romantizmin ünsürlərinin üstünlük təşkil etdiyi mərhələdən keçmiş bir ədəbiyyatda yaranmışdı. Amerika ədəbiyyatından fərqli olaraq Azərbaycan ədəbiyyatında romantiklər bütövlükdə milli ədəbiyyatın yaradıcıları olmadılar və ola da bilməzdilər, amma bütövlükdə onların ədəbiyyata gətirdikləri yeniliklər xeyli dəyərli olmuşdu və bu baxımdan Azərbaycan romantiklərinin ədəbiyyatımız qarşısında xidmətləri hədsizdir. Onlar ədəbiyyatımızı xeyli yeniləşdirmiş, ona yeni motivlər, ritmlər, janr formaları, yeni lirik qəhrəman gətirmişlər ki, bu da əslində inqilabi yenilik kimi dəyərləndirilə bilər.

Amerika romantizmi müəyyən ərazidə yaranan və konkret tarixi-ictimai siyasi hadisələri əks etdirən bir ədəbi prosesdir və bu proses konkret fəlsəfi, estetik, siyasi dünyagörüşü ifadə etmişdir.

Sözügedən ədəbiyyatlardakı romantik qəhrəmanlar arasında da oxşar cəhətlər fərqləndirmək olar. Doğrudur, romantik qəhrəmanın hər bir təzahür forması fərdi olduğundan və müəllif fərdiyyətini özündə daşıdığından, bu yerdə ayrı-ayrı yazarların yaratdıqları romantik qəhrəmanların tipologiyasından danışmaq daha doğru olardı. Məsələn, H.Cavidin lirik qəhrəmanının U.Uitmen qəhrəmanı ilə oxşar və fərqli cəhətlərindən danışanda müəyyən tipoloji cəhətləri müəyyənləşdirmək mümkündür. Dissertasiyada bu aspektdə aparılan bir sıra müqayisəli təhlillər romantizmin tipologiyası baxımından diqqətəlayiq və maraqlı material aşkarlayır.

Bəlkə də nəzərdən keçirdiyimiz ədəbiyyatlar arasında oxşar məqamlar daha çox olardı, amma tarixən elə alındı ki, müstəqil Azərbaycan dövləti

iki ildən də az mövcud oldu və sovet hakimiyyəti yaradıldıqdan sonra ədəbiyyat bütövlükdə hakim rejimin nəzarəti altına alındı və romantizm bir ədəbi cərəyan kimi sıxışdırıldı, bəzi məqamlarda isə ona yer olmadığı göstərilərək yalnız sosializm realizmi tərkibində romantik pafos kimi nəzərdən keçirilməyə başladı. Bu baxımdan M.Müşfiq əsərlərinin bir qismi, S.Vurğunun erkən şeirləri və pyeslərini səciyyəvi hesab etmək olar.

Nəzərdən keçirdiyimiz ədəbiyyatlar arasında onların fəlsəfi zəmini səviyyəsində də müəyyən oxşar məqamları müəyyənləşdirmək mümkündür. Bildiyimiz kimi, Amerika romantizminin fəlsəfi zəmini məhz transendentalizmdir ki, bu da Amerikada Yeni İngiltərədə Ralf Valdo Emerson, Henri Devid Toro və onların məsləkdaşları tərəfindən XIX əsrin 30-cu illərinin ikinci yarısında yaradılıb formalaşdırılmışdı. Vahid fəlsəfi və ideoloji zəmini olmayan Amerika romantizmində transendentalizm kifayət qədər bitkin bir təlim kimi təzahür etmişdi.

Hər iki ədəbiyyatın nümayəndələri arasında aparılan müqayisəli təhlillər romantizmin tipologiyası kontekstində kifayət qədər maraqlı səsləşmələr aşkarlayır. Bu sıradan E.Dikkinson və R.Rövşən şeirlərinin qarşılaşdırılması şəksiz maraq doğurur. E.Dikkinson və R.Rövşən şeirləri bütövlükdə bəşəriyyətə ünvanlanan poeziyadır. Dikkinson gənc Amerika ədəbiyyatında formalaşmış, lakin kökləri ilə bəşəriyyətin çoxdan yaratdığı transendental poeziyaya yaxındır. Ramiz Rövşənin şeirlərində Şərq mistisizmindən – təsəvvüf poeziyasından gələn məqamları duymaq mümkündür.

Hər iki şair klassik şeir ənənələrindən istifadə edir, lakin onlar üçün məna yükünü çatdırmaq daha vacib olduğundan, onlar formanın əsiri olmur, yeri gəldikdə məzmun xatirinə formanın "buxov"larını qırır və məzmunun dərinliyinə varan oxucu bunu, demək olar ki, hiss etmir.

"Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir. Tədqiqat boyu aparılan müşahidələr və əldə edilən qənaətlər göstərir ki, romantizm bir ədəbi cərəyan kimi dünya ədəbiyyatında onun bütün təzahür formalarını bir məfhum altında birləşdirməyə əsas verən oxşar xüsusiyyətlərə malik olsa da, hər milli ədəbiyyatda romantizm cərəyanı bariz özünəməxsus xüsusiyyətləri ilə seçilir və bu da onun konkret milli ədəbiyyat hüdudlarında milli özəlliyindən danışmağa əsas verir. Və əslində dünya romantizmi deyilən unikal tipoloji hadisəni elə bu özünəməxsus milli romantik ədəbiyyatlar yaradır.

Dissertasiyanın əsas məzmunu aşağıdakı çap işlərində əks olunmuşdur:

1. На пути к "Хижине дяди Тома" (Раннее творчество Гарриет Бичер-Стоу) // Filologiya məsələləri. Bakı: 2002, № 1, s.147-152
2. Аболиционизм и американская литература // Elmi xəbərlər. Bakı: ADU, 2002, № 3, s. 154-157
3. Рабовладельческая Америка в "Хижине дяди Тома" // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: BSU, 2002, № 3, s.131-134
4. "Дред". Второй аболиционистский роман Гарриет Бичер-Стоу // Elmi xəbərlər. Bakı: ADU, 2002, № 4, s. 154-157
5. Секрет успеха // Dil və Ədəbiyyat. Nəzəri, elmi-metodik jurnal. Elektron versiyası. Bakı: ADU, 2002, № 2 (34), s. 72
6. Гарриет Бичер Стоу и русская литература // Elmi xəbərlər. Bakı: ADU, 2002, № 5, s. 200-204
7. Ən cazibəli və həlim abolisionist // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: 2004, № 4, s. 175-179
8. Первый американский романтик // Elmi xəbərlər. Bakı: ADU, 2004, № 5, s. 248-252
9. İdeologiya və tərcümə // Azərbaycan Tərcümə Mərkəzi, Xəzər, 2004, № 4, s. 99-101
10. Uilyam Gilmor Simms və ya Cənub ştatlarının ən böyük yazıçısı // Azərbaycan, 2005, № 6, s. 182-184
11. ABŞ abolisionist hərəkatı və Harriet Biçer-Stou. Bakı: Mütərcim, 2005, 135 s.
12. ABŞ cənub ştatları ədəbiyyatı. Bakı: Mütərcim, 2005, 53 s.
13. Preromantizm və Amerika romantizmi // Azərbaycan, 2006, № 3, s. 186-187
14. Amerika romanının ilk addımları // Elmi xəbərlər. Bakı: ADU, 2006, № 1, s. 152-154
15. İki inqilab şairi: Filip Freno // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: BSU, 2006, № 1, s. 142-145
16. Исторические пути американского и азербайджанского романтизма // Литературный Азербайджан, 2007, № 12, s. 122-124
17. ABŞ-ın Qərb ştatları ədəbiyyatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: BSU, 2008, № 3, s. 209-213
18. Amerika romantizmi: təşəkkülü, inkişafı və özəllikləri. Bakı: Adiloğlu nəşriyyatı, 2009, 135 s.

19. Romantizm ədəbi cərəyan kimi // Elmi xəbərlər. Bakı: ADU, 2010, № 4, s. 178-185
20. Ədəbi metod anlayışına bir nəzər // Elmi əsərlər. Dil və Ədəbiyyat. Bakı: BSU, 2011, № 1, s. 78-92
21. Romantizm cərəyanının yaranmasını şərtləndirən tarixi şərait // Azərbaycan, 2010, №12, s. 122-126
22. К вопросу о типологии романтизма // Мозырский государственный педагогический университет имени И.П.Шамякина. Текст – Язык – Человек. Мозырь, 2011, s. 184-185
23. Социальные проблемы в литературе романтизма (Г.Бичер-Стоу и Дж.Джаббарлы) // Полтавский Национальный Педагогический Университет имени В.Г.Короленко. Филологические науки. Полтава, 2011, вып. 9, s. 71-76
24. Romantizmin yaranması haqqında mülahizələr / Bakı Slavyan Universiteti - Gəncə Dövlət Universiteti, 4-7 may 2011-ci il, Bakı-Gəncə, s. 487-491
25. Романтизм: типология и основные направления // Полтавский Национальный Педагогический Университет имени В.Г.Короленко. Филологические науки. Полтава, 2011, вып. 8, s. 42-46
26. Трансцендентализм и американские романтики // Донецкий Национальный Университет. Восточнославянская филология. Литературоведение. Горловка, 2012, вып.19, s. 230-239
27. Путь к литературной независимости, или становление американской поэзии // Вестник. Серия "Филологические науки" Алматы, 2012, № 1 (39), s. 77-81
28. Romanticism and enlightenment (by example American and Azerbaijani literatures) // Белгородский Государственный Университет. Научные ведомости Серия Гуманитарные науки 2012, № 12 (131), вып.4, s. 92-95.

Айнур Закир гызы Сабитова

# РОМАНТИЧЕСКОЕ ТЕЧЕНИЕ В АМЕРИКАНСКОЙ И АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРАХ: ТИПОЛОГИЯ, ИСТОРИЯ

## Резюме

Резюмируемая работа представляет собой первый опыт монографического исследования романтизма как литературного течения в американской (США) и азербайджанской литературах.

Сравнительное рассмотрение столь далеких друг от друга в пространственно-временном измерении литератур основано на продуманной структуре исследования (I глава: Романтизм как метод и течение. II глава: Исторические пути американского и азербайджанского романтизмов. III глава: Типология американского и азербайджанского романтизмов.). Непосредственное исследование типологии конкретных литературных опытов предваряется определением теоретических векторов предмета и рассмотрением путей формирования романтического течения в отмеченных литературах в тесной обусловленности историческими факторами и условиями.

Решение проблематики указанных глав реализуется в соответствующих разделах и параграфах, связанных с такими, например, релевантными вопросами, как предложенная периодизация истории обоих романтизмов либо условная классификация американского романтизма (аболиционисткая литература, Южный, Западный романтизм), а также специфические особенности азербайджанского и американского романтизмов.

В числе специфических особенностей американского романтизма (конец XVIII - середина XIX вв.) особо акцентируется исключительная роль романтиков в зарождении собственно национальной литературы США, которое совпало с формированием государственности в этой стране, проблемы становления которой отразились в поисках этой литературой романтического идеала. Становление азербайджанского романтизма, развивавшегося параллельно с критическим реализмом, и его короткая жизнь (первые 2 десятилетия XX века) позволяют исследователям квалифицировать его как «возвращение», обновление романтической традиции в национальной средневековой поэзии.

Компаративный анализ характерных образцов различных жанров в исследуемых литературах позволяет определить типологию американского и азербайджанского романтизмов: отражение просветительских ценностей (в азербайджанской литературе – развитие романтизма параллельно с критическим реализмом), близкая связь с социальной действительностью (аболиционизм, рационализм, сильный «местный колорит» в американском романтизме, специфика выбора «места событий» в азербайджанском романтизме для выражения социальных мотивов), обогащение литературы новыми темами и жанрами (напр., вестерн в литературе Западных штатов, аболиционистская тематика в литературе Северных штатов, обновление классических поэтических форм, рождение романтической поэмы, традиции в азербайджанской литературе и др.).

В целом результаты проведенного сопоставительно-типологического изучения географически и исторически столь дистанцированных друг от друга романтизмов способствуют восполнению типологической картины мировой романтической литературы.

Aynur Zakir Sabitova

# ROMANTIC CURRENT IN AMERICAN AND AZERBAIJANLITERATURES: TYPOLOGY, HISTORY


## Summary

The summarized research reflects the first experience of monographic research of romanticism as a literary current in American (USA) and Azerbaijan literatures.

Comparative study of the literatures being so far from each other in spatiotemporal dimensions is based on the well-thought out structure of the research. (I Heading: Romanticism as a Method and Current. II Heading: Historical Ways of American and Azerbaijan Literatures. III Heading III: Typology of American and Azerbaijan Romanticism.). Direct research of typology of the concrete literary experience anticipates definition of the theoretical vectors of the subject matter and ways of forming romantic currents in the above-mentioned literatures within close conditionality of the historical and factors and provisions.

Solution of the subject matter of the stated headings is realized in the appropriate sections and paragraphs related to those like, for example, relevant questions, such as submitted periodization of history of the two romanticisms or conditional qualifications of American romanticism (abolitionist literature, South-West Romanticism), as well as specific peculiarity of Azerbaijan and American Romanticism.

Exclusive roles of the romantics in the concept of proper national literature of the USA make a special emphasis on among specific peculiarities of the American Romanticism (late XVIII-middle of XIX) which concurred with the establishment of the statehood in the mentioned country and the problem of establishment was reflected in the searches of this literature for romantic ideals. Formation of Azerbaijan romanticism developing parallel to critical realism and its short lifespan (first 2 decades of the XX century) allows researchers to categorize it as "recurrence", renewal of romantic tendencies in national medieval poetry.

Comparative analysis of the typical images of the different genres in the researched literatures allows to determine typology of the American and Azerbaijan romanticisms: reflection of enlightening values (in Azerbaijan literature- growth of romanticism parallel to critical realism), close relation with social reality (abolitionism, rationalism, strong "local colour" in

American Romanticism, specific character of choice of the “place of events” in Azerbaijan Romanticism for expressing social motifs), enrichment of the literature with new themes and genres (e.g. Western in the literature of South states, abolitionist subject in the literature of North states, renewal of classic poetic forms, birth of romantic poems, tradition in Azerbaijan literature and so on.)

On the whole the results of the carried out comparative- typological research of the romanticisms which are distant fro each other due to geographical and historical points enables drawing typological picture of the world romantic literature.

Çapa imzalanıb: 23.05.2014
Format: 60x84 1/16. Tiraj: 100.  Sifariş № 26.

---

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərкəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks  596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ
РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

АЙНУР ЗАКИР гызы САБИТОВА

# РОМАНТИЧЕСКОЕ ТЕЧЕНИЕ В АМЕРИКАНСКОЙ И АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРАХ: ТИПОЛОГИЯ, ИСТОРИЯ

5718.01 – Мировая литература (литература США)
5716.01 – Азербайджанская литература

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора наук по филологии

Баку – 2014